Xalqın qəzeti!

# Xalq qəzeti

№ 204 (30898) 24 sentyabr 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Var dövlətimin imzası dövlətlər sırasında

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva BMT-də keçirilən yüksəksəviyyəli müzakirələrdə

**Sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva BMT-nin Nyu-Yorkda yerləşən mənzil-qərargahında Baş Assambleyanın 80-ci sessiyası çərçivəsində keçirilən yüksəksəviyyəli müzakirələrdə iştirak ediblər.**

BMT-nin Baş katibi Antonio Quterreş dövlətimizin başçısı İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı salamlayıb.

Qeyd edək ki, BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında keçirilən Baş Assambleyanın 80-ci sessiyasında 150-dən çox dövlət və hökumət başçısı iştirak edir. “Birlikdə daha yaxşı: 80 il və daha çox sülh, inkişaf və insan hüquqları naminə” mövzusuna həsr olunmuş sessiyada qlobal gündəlikdə duran məsələlərə aid, o cümlədən dünyanın bəzi yerlərində davam edən münaqişələr, Dayanıqlı İnkişaf Məqsədləri, iqlim böhranı və digər mövzularda müzakirələr aparılır. Sessiya sentyabrın 30-dək davam edəcək.






## İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda

**Əlahəzrət!**

**Əziz Qardaşım!**

Səudiyyə Ərəbistanı Krallığının milli bayramı – Krallıq Elan Edilməsi Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Qardaş xalqlarımızı birləşdirən ortaq mənəvi dəyərlər, dini-mədəni köklər və möhkəm dostluq Azərbaycan–Səudiyyə Ərəbistanı əlaqələrini şərtləndirən başlıca amillərdəndir. Etibarlı tərəfdaşımız olan Səudiyyə Ərəbistanı ilə qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərimizin bugünkü səviyyəsi bizi sevindirir.

Hazırda ikitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi gündən-günə genişlənir və yeni məzmunla zənginləşir. İqtisadiyyat, ticarət, sənaye, investisiya, alternativ və bərpaolunan enerji, yaşıl keçid və digər sahələrdə əməkdaşlığımızın daha da dərinləşdirilməsi üçün qarşılıqlı fəaliyyətimizi bundan sonra da davam etdirmək əzmində olduğumuzu bildirirəm.

Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında enerji sahəsində əməkdaşlıq inkişaf edərək yeni müstəviyə çıxmışdır. Qardaş ölkənizin aparıcı “ACWA Power” şirkətinin Azərbaycanda bərpaolunan enerji sahəsində həyata keçirdiyi fəaliyyətini, xüsusilə də Qafqaz regionunun ən böyük külək elektrik stansiyası olacaq Xızı-Abşeron külək elektrik stansiyasının tikintisini yüksək qiymətləndirirəm. Bu layihə Azərbaycan-Səudiyyə Ərəbistanı iqtisadi əlaqələrinin şaxələndirilməsində əhəmiyyətli rol oynayır. Eyni zamanda OPEC+ çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığımızın mövcud səviyyəsi təqdirəlayiqdir.

Ölkələrimizin beynəlxalq təşkilatlar, xüsusilə də İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində səmərəli əməkdaşlığını təqdir edir, gələn il Azərbaycanda İƏT-in Zirvə Görüşünün keçiriləcəyini məmnunluqla qeyd edirəm.

Əminəm ki, zəngin mənəvi dəyərlərimizdən, xalqlarımızın qardaşlığından güc alan Azərbaycan–Səudiyyə Ərəbistanı dövlətlərarası əlaqələri və əməkdaşlığı həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə birgə səylərimizlə bundan sonra da yüksələn xətt üzrə inkişaf etməyə və möhkəmlənməyə davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 sentyabr 2025-ci il**

## Ölkəmizin iqtisadi potensialı BMT dialoqlarında



Səhifə ⇨ 5

## Qlobal çağırışlar və siyasi gündəmin əks-sədası

*Yaxud dünyanın BMT Baş Assambleyasının 80-ci sessiyasından gözləntiləri*



**Nyu-Yorkda BMT-nin mənzil-qərargahında açılan Baş Assambleyanın 80-ci sessiyası dünya siyasətinin ən yüksək tribunasıdır. Buradan səslənən mesajlar qlobal gündəmi formalaşdırır, beynəlxalq münasibətlərin gələcək trayektoriyasını müəyyənləşdirir və dövlətlərin siyasi mövqeyini nümayiş etdirir. 150-dən çox dövlət və hökumət başçısının iştirakı assambleyanı qlobal “siyasi laboratoriya”ya çevirir. Burada sınaqdan keçirilən ideyalar, irəli sürülən təşəbbüslər və səsləndirilən fikirlər beynəlxalq siyasətin real dinamikasını əks etdirir.**

**(ardı 4-cü səhifədə)**

## “Dördüncü Respublika” Ermənistana nə vəd edir?



Səhifə ⇨ 7

## Bakı–Tehran: 2 dəhliz, 1 hədəf razılaşması

*Ortaq faydaya yönələn qonşuluğun alternativi yoxdur*

**Azərbaycan–İran münasibətləri son aylar yeni dinamizm qazanıb. Mövcud situasiyanın mərkəzində həm siyasi, həm iqtisadi müstəvidə mühüm layihələr dayanır. Zəngəzur dəhlizi (TRIPP) və Araz dəhlizinin gələcəyi bölgənin logistika xəritəsini dəyişəcək əsas vektorlar kimi gündəmin önəmli mövzularındandır. İki ölkə arasında əlaqələrin intensivləşməsi konkret infrastruktur layihələri, enerji və ticarət sazişlərində özünü göstərir. Regionda böyük oyunçuların maraqları fonunda Bakı və Tehranın əməkdaşlığı balanslaşdırıcı amil rolunu oynayır, Cənubi Qafqazda yeni geosiyasi reallıqların formalaşmasına töhfə verir.**

**(ardı 6-cı səhifədə)**





## Sabahın “yaşıl iqtisadiyyat”ı

*Beynəlxalq İnvestisiya Forumu bu keçidə maliyyə dəstəyi qazandırır*



**Zəngin karbohidrogen ehtiyatları hesabına özünün enerji təhlükəsizliyini tam təmin edən Azərbaycan dünyanın prioritet elan etdiyi “yaşıl keçid”in də fəal iştirakçısına çevrilib. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Bakıda keçirilən Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun iştirakçılarına ünvanladığı müraciətdə bu vacib məqama toxunaraq hazırda ölkəmizin bir sıra dövlətlərin həm ənənəvi, həm də bərpaolunan enerji sahəsində strateji tərəfdaşı olduğunu vurğulayıb.**

**(ardı 10-cu səhifədə)**

## Sosial islahatların hədəfi ümumi rifahın yüksəldilməsidir



**Müasir və güclü Azərbaycan reallıqları deməyə əsas verir ki, sabitlik, təhlükəsizlik və inkişaf son 22 illik tariximizi xarakterizə edən əsas amillərdir. Prezident İlham Əliyevin “Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah” konsepsiyasına əsaslanan Azərbaycan dünyada seçilmiş ölkələrin sırasına daxil olub.**

**(ardı 11-ci səhifədə)**

# Azərbaycan və İraq liderlərinin dialoqu



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə görüşüb.**

İraq Prezidenti dövlətimizin başçısına Ermənistan ilə Azərbaycan arasında sülh gündəliyinin irəli aparılması, xüsusilə Vaşinqtonda Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasına dair sazişin paraflanması münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi və Azərbaycanın bundan sonra da sülh gündəliyinin irəli aparılması üçün səylərini davam etdirəcəyini dedi. Dövlətimizin başçısı Vaşinqtonda nəticələrin əldə edilməsində ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu vurğuladı.

Söhbət zamanı İraq Prezidentinin Azərbaycana səfərləri və Prezident İlham Əliyevlə keçirdiyi görüşlər məmnunluqla xatırlandı.

Görüşdə Azərbaycanla İraq arasında münasibətlərin inkişaf etdirilməsində Hökumətlərarası Komissiyanın roluna toxunuldu, enerji, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu. Həmçinin ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər təsisatlar çərçivəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyevin Avropa Şurasının Baş katibi ilə görüşü



**Sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşüb.**

Avropa Şurasının Baş katibi Ermənistanla Azərbaycan arasında əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Vaşinqton görüşündə ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılmasına, iki ölkə arasında münasibətlərin normallaşmasına dair sazişin paraflanmasına və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış Vaşinqton Bəyannaməsinin əhəmiyyətinə toxunuldu. Bütün bunların regionda davamlı sülhün təmin olunması baxımından vacibliyi qeyd edildi.

Alen Berse Avropa Şurasının regional sülh gündəliyini dəstəklədiyini vurğuladı.

Avropa Şurasının Baş katibi COP29 dövründə Azərbaycana səfərini, həmin vaxt və digər beynəlxalq tədbirlər çərçivəsində dövlətimizin başçısı ilə görüşlərini məmnunluqla xatırladı.

Görüşdə Azərbaycanla Avropa Şurası arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Birinci xanım Mehriban Əliyeva “Gələcəyi birlikdə qurmaq” adlı ziyafətdə

**Sentyabrın 23-də Nyu-Yorkda ABŞ-ın birinci xanımı Melaniya Trampın adından “Gələcəyi birlikdə qurmaq” adlı ziyafət verilib.**

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva tədbirdə iştirak edib.

*AZƏRTAC*

# “Orta Dəhliz boyunca: bağlantı, maliyyə və enerji” mövzusunda 6-cı Xəzər Biznes Forumunun iştirakçılarına

**Hörmətli tədbir iştirakçıları!**

Sizi Xəzər Siyasət Mərkəzinin təşkilatçılığı ilə keçirilən “Orta dəhliz boyunca: bağlantı, maliyyə və enerji” mövzusuna həsr olunmuş 6-cı Xəzər Biznes Forumunda ürəkdən salamlayıram.

Orta Dəhliz çox geniş coğrafiyanı birləşdirən strateji layihədir. Bu dəhliz Avropanı Xəzər dənizi vasitəsilə Asiya ilə bağlayan etibarlı və təhlükəsiz marşrut, yüklərin Asiyadan Avropaya və əks istiqamətdə çatdırılmasının ən qısa və optimal yoludur.

Azərbaycanın əlverişli coğrafi mövqeyi – iki qitənin tam ortasında yerləşməsi bizə bağlılıq məsələlərində mühüm rol oynamağa imkan verir. Bu gün artıq fəxrlə deyə bilərik ki, Azərbaycanın uzunmüddətli baxışı və yorulmaz səyləri nəticəsində Asiya və Avropa arasında daha yaxşı sinerjini təmin edən Orta Dəhliz kimi irimiqyaslı layihənin reallaşması mümkün olmuşdur. Orta Dəhlizin tam istismara verilməsi Azərbaycanın iqtisadi potensialı ilə yanaşı, ölkəmizdə mövcud olan siyasi sabitlik və təhlükəsizlik amili ilə də şərtlənmişdir.

Biz Orta Dəhliz üzərində yerləşən nəqliyyat infrastrukturuna, xüsusilə də dəniz limanına, gəmiqayırma zavoduna, dəmir yolu və digər logistik infrastruktura böyük investisiyalar yatırmışıq. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Xəzər yük donanması – bütün bunlar Orta Dəhlizin funksionallığını təmin edən vacib nəqliyyat infrastrukturlarıdır. Orta Dəhlizin Azərbaycan seqmentində infrastrukturun təkmilləşdirilməsi, rəqəmsallaşdırılması, modernləşdirilməsi və ötürücülük qabiliyyətinin genişləndirilməsi prosesi hazırda da davam etməkdədir.

Son üç ildə Orta Dəhliz üzrə Azərbaycan vasitəsilə yükdaşımalarının həcmi təxminən 90 faiz artmış, yüklərin keçid müddəti əhəmiyyətli dərəcədə azalmışdır. Aparılmış hesablamalara əsasən 2030-cu ilədək Orta Dəhlizin yük daşıma qabiliyyətinin 2021-ci il ilə müqayisədə 3 dəfə artacağı, yüklərin keçid müddətinin isə 2 dəfə azalacağı gözlənilir.

Cari ilin 8 avqust tarixində Vaşinqtonda ABŞ Prezidenti cənab Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında imzalanmış birgə bəyannamə Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin edəcək “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”nun (TRIPP) əsasını qoydu. İnanıram ki, Orta Dəhlizin növbəti mühüm seqmentinə çevriləcək TRIPP Asiyanı Avropa ilə birləşdirən, beynəlxalq yükdaşımalarının tranzit imkanlarının genişlənməsinə, region ölkələrinin rifahına və onların qlobal təchizat zəncirlərinə inteqrasiyasına xidmət edən vacib nəqliyyat əlaqəsi olacaqdır. TRIPP, eyni zamanda gələcəkdə enerji resurslarının daşınması, elektrik enerjisinin, xüsusilə də bərpaolunan enerjinin ixracı, o cümlədən fiber-optik xətlərin çəkilməsi üçün də geniş imkanlar təqdim edərək regionun beynəlxalq ticarət və rəqəmsal kommunikasiya habına çevrilməsinə təkan verə bilər. Azərbaycan bu marşrutun yaxın zamanlarda reallaşması üçün bütün səylərini səfərbər edib.

Biz Orta Dəhlizi regional iqtisadi artım və inteqrasiyanın güclü katalizatoru qismində görür, onu infrastrukturun, sənayenin və biznesin inkişafını stimullaşdıran, bölgədə sabitliyə və çiçəklənməyə töhfə verən mühüm amil olaraq qəbul edirik.

İnanıram ki, bugünkü tədbir regional və qlobal inteqrasiyanın dərinləşdirilməsinə xidmət edən Orta Dəhliz və onun yaratdığı yeni imkanlar ətrafında faydalı fikir mübadiləsinin aparılmasına və yeni təşəbbüslərin irəli sürülməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*
**Bakı şəhəri, 22 sentyabr 2025-ci il**

# Prezident İlham Əliyevin Yunanıstanın Baş naziri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 23-də BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Yunanıstan Respublikasının Baş naziri Kiriakos Mitsotakis ilə görüşü olub.**

Yunanıstanın Baş naziri Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və Vaşinqtonda keçirilmiş tarixi görüş münasibətilə təbriklərini çatdırdı, əldə olunmuş nailiyyətlərin regional sülhün gücləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi. Azərbaycanın regionda sülh gündəliyinin təşəbbüskarı olduğunu deyən Prezident İlham Əliyev Vaşinqtonda keçirilmiş görüşün Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması baxımından önəminə toxundu və bu prosesdə ABŞ Prezidenti Donald Trampın mühüm rolunu qeyd etdi. Vaşinqton görüşündə Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz nəqliyyat dəhlizinin yaradılmasına dair əldə olunmuş razılaşmanın regional bağlantılar baxımından mühüm əhəmiyyət daşıdığı vurğulandı.

Söhbət zamanı Azərbaycanla Yunanıstan arasında enerji sahəsində uğurlu əməkdaşlıq qeyd edildi, iqtisadiyyat, ticarət və turizm sahələrində əlaqələrin genişləndirilməsinin, Hökumətlərarası Komissiyanın fəaliyyətinin canlandırılmasının vacibliyinə toxunuldu.

# Azərbaycan və Keniya prezidentləri görüşüblər



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 23-də BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Keniya Respublikasının Prezidenti Uilyam Samoei Ruto ilə görüşü olub.**

Söhbət zamanı dövlət başçıları Azərbaycanla Keniya arasında münasibətlərin inkişafından məmnunluqlarını ifadə etdilər. Azərbaycanın Keniyada səfirliyinin açılmasının əlaqələrimizin inkişafına təkan verdiyi qeyd olundu. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin vacibliyi vurğulandı, əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün hökumət rəsmilərindən ibarət nümayəndə heyətlərinin səfərlərinin təşkili məsələsinə toxunuldu. Bu xüsusda enerji, kənd təsərrüfatı, sənaye və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulandı.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan və Finlandiya prezidentlərinin görüşü



**Sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə görüşü olub.**

Finlandiya Prezidenti Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və Vaşinqtonda əldə edilmiş tarixi nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. Aleksandr Stubb Finlandiyanın regionda sülhü daim dəstəklədiyini qeyd etdi.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı məhz Finlandiyanın ATƏT-ə sədrliyi dövründə ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılması ilə əlaqədar qərarın qəbul edildiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanla Ermənistanın sülh dövrünə qədəm qoyduqlarını qeyd etdi.

Söhbət zamanı sülh gündəliyinin irəli aparılması üçün birgə səylərin vacibliyi vurğulandı.

Görüşdə Azərbaycanla Finlandiya arasında ikitərəfli, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu, Azərbaycan-Avropa İttifaqı əlaqələrinə dair fikir mübadiləsi aparıldı.

# Baş nazirin Türkiyənin təhsil naziri ilə görüşü

**Sentyabrın 23-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının milli təhsil naziri Yusuf Tekinlə görüşüb.**



Görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən təhsil sahəsində dinamik inkişafından məmnunluq ifadə olunub.

Bakıda Türk Anadolu Liseyinin yeni korpusunun istifadəyə verilməsi iki ölkə arasında təhsil sahəsində səmərəli əməkdaşlığın bariz nümunəsi kimi dəyərləndirilib. Eyni zamanda, növbəti tədris ilindən Türkiyənin İstanbul şəhərində Azərbaycan məktəbinin açılacağı qeyd edilib.

Y.Tekinin Qarabağ Universitetini, həmçinin Şuşa, Füzuli və Ağdam şəhər orta məktəblərini ziyarət etməsi məmnunluqla vurğulanıb.

Səfər çərçivəsində imzalanmış təhsil və peşə təhsili sahəsində əməkdaşlığa dair sənədlərin əhəmiyyəti qeyd olunub.

Görüş zamanı təhsil, o cümlədən peşə təhsili sahəsində əməkdaşlığın cari vəziyyəti və perspektivləri, Türkiyə–Azərbaycan Universitetinin fəaliyyəti və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

*XQ*

# İran Prezidenti Azərbaycan heyətini qəbul edib

**İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian İranda səfərdə olan Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



Nazirlər Kabinetindən bildirilib ki, Baş nazirin müavini İran Prezidentinə Prezident İlham Əliyevin salamlarını və xoş arzularını çatdırıb.

Görüşdə hər iki ölkə rəhbərlərinin iradəsi və diqqəti ilə Azərbaycan–İran əlaqələrinin uğurla inkişaf etdiyi bildirilib. Möhkəm təməllər üzərində qurulmuş ölkələrarası faydalı əməkdaşlığın daha da genişləndirilməsi, birgə layihələrin icrasının davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

İran Prezidenti Məsud Pezeşkian səmimi salamlarının Azərbaycan Prezidentinə çatdırılmasını xahiş edib.

***

**İranda səfərdə olan Baş nazirinin müavini Şahin Mustafayev İranın Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibi Əli Laricani ilə görüşüb.**



Şahin Mustafayev Ali Şuranın yeni katibini təyinatı münasibətilə təbrik edərək ona fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə iki ölkə arasında iqtisadi əməkdaşlıq və regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb, Şimal–Cənub, Şərq–Qərb nəqliyyat dəhlizlərinin, o cümlədən Azərbaycanla İran arasında həyata keçirilən Araz dəhlizinin, eləcə də digər müştərək layihələrin əhəmiyyəti vurğulanıb.

***

**Baş nazirinin müavini, Azərbaycanla ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan tərəfindən sədri Şahin Mustafayev Tehrana səfəri çərçivəsində İranın yol və şəhərsalma naziri, Dövlət Komissiyasının İran tərəfindən sədri Fərzanə Sadeqlə də görüşüb.**

Görüşdə birgə Dövlət Komissiyasının sonuncu iclasının nəticəsi olaraq imzalanmış Anlaşma Memorandumundan irəli gələn məsələlərin icrası və həyata keçirilən birgə layihələrin mövcud vəziyyəti nəzərdən keçirilib. İqtisadiyyat, nəqliyyat, gömrük, sərhəd, neft, qaz, ticarət, investisiya və humanitar sahələrdə əməkdaşlığın hazırkı durumu və daha da genişləndirilməsi istiqamətində müzakirələr aparılıb.



Görüşdə, həmçinin Araz dəhlizi üzrə Ağbənd–Kəlalə körpüsünün tikintisinin, Kəlalə–Culfa yolunun genişləndirilməsinin icra vəziyyəti ilə bağlı məlumat verilib, Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq Bakı–Tehran–Bakı, Bakı–Təbriz–Bakı birbaşa təyyarə reyslərinin fəaliyyətə başlamasından məmnunluq ifadə olunub və reyslərin sayının artırılması, tranzit daşımalarda mövcud məsələlərin həlli ilə bağlı fikir mübadiləsi aparılıb.

Baş nazirin müavini Şahin Mustafayev Tehrana səfəri çərçivəsində, eyni zamanda, İran İslam Respublikasının energetika naziri Abbas Əliabadi ilə də görüşüb, iki ölkə arasında həyata keçirilən Xudafərin–Qız Qalası, Ordubad–Marazad layihələrinə dair, həmçinin elektrik enerjisi mübadiləsi, su ehtiyatlarının birgə səmərəli işlənməsi ətrafında müzakirələr aparıb.

*XQ*

# Konstitusiya Məhkəməsinin Plenumunda ombudsmanın sorğusuna baxılıb



**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

Məhkəmə iclasında İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın) sorğusu əsasında Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın 3.2.23-cü, 2013-cü il 26 dekabr tarixli 354 nömrəli Qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın 3.2.24-cü və 2022-ci il 9 mart tarixli 72 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədrisin kredit sistemi ilə təşkili Qaydası"nın 3.2.25-ci yarımbəndlərinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I, lll–V hissələrinə, 41-ci maddəsinin I hissəsinə, 42-ci maddəsinin I hissəsinə, 71-ci maddəsinin l və ll hissələrinə və 149-cu maddəsinin I, III və V hissələrinə uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim F.Tutayukun məruzəsini, İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın) sorğusunu və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmə, Bakı Apellyasiya Məhkəməsi, Elm və Təhsil Nazirliyi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi tərəfindən təqdim edilən mütəxəssis mülahizələrini, ekspertlər – Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hüquq kafedrasının dosenti, hüquq elmləri doktoru A.Qədirovun, Bakı Dövlət Universitetinin hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının baş müəllimi, hüquq elmləri üzrə fəlsəfə doktoru G.Cəbinin rəylərini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın 3.2.23-cü, 2013-cü il 26 dekabr tarixli 354 nömrəli Qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın 3.2.24-cü və 2022-ci il 9 mart tarixli 72 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədrisin kredit sistemi ilə təşkili Qaydası"nın 3.2.25-ci yarımbəndləri Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I, lll–V hissələri, 41-ci maddəsinin I hissəsi, 42-ci maddəsinin I hissəsi, 71-ci maddəsinin l və ll hissələri və 149-cu maddəsinin I, III və V hissələri ilə ziddiyyət yaratmır.

Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsinin I, IV hissələrinin və 149-cu maddəsinin I hissəsinin tələblərinə və Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, orta ixtisas və peşə təhsili müəssisələrində üzrlü səbəblərə görə fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbələrin təhsil hüquqlarının təmin edilməsi üçün bu Qərarda göstərilən Qaydaların təkmilləşdirilməsi Nazirlər Kabinetinə tövsiyə edilib.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

*XQ*

# Milli Məclisdə görüşlər



**Sentyabrın 23-də Milli Məclisin Sədri Sahibə Qafarova "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Laos Xalq Demokratik Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokuroru Saysana Kotputanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Bakıda keçirilən beynəlxalq konfransın əhəmiyyətini qeyd edən Milli Məclisin Sədri bu tədbirin prokurorluq fəaliyyəti ilə bağlı qabaqcıl təcrübələrin mübadiləsinə və ümumi çağırışların müəyyən edilməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə parlamentlər arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb və qanunvericilik orqanları arasında əməkdaşlığın ölkələr arasında əlaqələrin inkişafında müsbət rolu qeyd olunub. O cümlədən beynəlxalq parlament təşkilatlarında əməkdaşlıq məsələləri vurğulanıb. Bildirilib ki, parlamentlərimiz Parlamentlərarası İttifaq, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi kimi mühüm platformalarda əməkdaşlıq edirlər.

Görüş üçün təşəkkürünü bildirən Laos Xalq Demokratik Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokuroru Saysana Kotputan Bakıda prokurorluq orqanları üçün beynəlxalq konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə təşəkkürünü ifadə edib. Konfransın əhəmiyyətindən danışan qonaq onun dost ölkələrin prokurorluq orqanları arasında qarşılıqlı əməkdaşlığın güclənməsinə öz töhfəsini verəcəyinə əminliyini bildirib.

***

**Milli Məclisin Sədri Sahibə Qafarova həmin gün Polşa Respublikasının ölkəmizdəki səfiri Pavel Radomski ilə də görüşüb.**



Sahibə Qafarova P.Radomskini Azərbaycanda diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edərək səfir kimi gələcək fəaliyyətində ikitərəfli əlaqələrimizin daha da genişlənməsinə töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Səfir Pavel Radomski ölkəmizin və paytaxt Bakının inkişafı ilə bağlı müsbət fikirlərini ifadə edib. O, işğaldan azad edilmiş torpaqlarımıza səfər etdiyini, orada aparılan genişmiqyaslı quruculuq işlərinin onda dərin təəssürat yaratdığını bildirib.

# Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Nyu-York dialoqu



**Sentyabrın 22-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın Respublikasının xarici işlər naziri Ararat Mirzoyan Nyu-York şəhərində BMT Baş Assambleyasının sessiyası çərçivəsində görüşüblər.**

Bu barədə Azərbaycan XİN-in Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, 2025-ci il 8 avqust tarixli Vaşinqton Sülh Sammitinin nəticələrinə əsaslanaraq nazirlər sülh gündəliyinin irəlilədilməsi üçün mümkün növbəti addımlar barədə fikir mübadiləsi aparıblar.

Nazirlər dialoqu davam etdirmək barədə razılığa gəliblər.

# Bakıda İƏT qurumunun iclası



**İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin əmək nazirlərinin və nümayəndə heyətlərinin iştirakı ilə Bakıda Əmək Mərkəzinin İcraiyyə Şurasının iclası olub.**

İclas Əmək Mərkəzinin Baş Assambleyasının 2-ci sessiyasına hazırlıq və mərkəzin fəaliyyətinin gücləndirilməsi məqsədi daşıyıb.

İƏT-in Əmək Mərkəzinin İcraiyyə Şurasının sədri, Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev ölkəmizin dünyada İslam həmrəyliyinin möhkəmləndirilməsini dəstəklədiyni və respublikamızla təşkilat arasındakı əlaqələrin səmərəli əməkdaşlıq və dialoq əsasında qurulduğunu bildirib.

İƏT-in Əmək Mərkəzinin İcraiyyə Şurasının sədrinin müavini, Səudiyyə Ərəbistanı Krallığının İnsan resursları və sosial inkişaf nazirinin müavini Abdullah Nasser M. Abuthnain iclasın üzv ölkələr arasında əlaqələrin genişlənməsinə, fəal təcrübə mübadilələrinə imkan yaratdığını diqqətə çatdırıb.

Mərkəzin baş direktoru Azər Bayramov İƏT-in ən gənc institutu olan bu mərkəzin üzv ölkələrin əmək bazarının inkişafı, işçi hüquqlarının müdafiəsi, həmçinin məşğulluq imkanlarının artırılması sahələrində əməkdaşlığın genişləndirilməsində rolundan bəhs edib.

İclasda İƏT-in Əmək Mərkəzinin fəaliyyət və maliyyə hesabatları dinlənilib.

*XQ*

# Qlobal çağırışlar və siyasi gündəmin əks-sədası

(əvvəli 1-ci səhifədə)

Sessiyanın rəsmi şüarı – "Birlikdə daha yaxşı: 80 il və daha çox sülh, inkişaf və insan hüquqları naminə" – diplomatik üslubda ümid və həmrəyliyə çağırış etsə də, faktiki reallıq bu idealizmin nə qədər praktik olduğunu sual altına qoyur. Çünki dünya düzənində parçalanmalar dərinləşib: Bir tərəfdə Qərb ölkələri "qaydalara əsaslanan nizam"dan danışır, digər tərəfdə isə



Qlobal Cənub dövlətləri bu yanaşmanı hegemonluğun yeni forması kimi qəbul edir. Əslində, bu sessiya "güzgü funksiyası" daşıyır: BMT-nin 80 illik tarixi missiyası ilə indiki qlobal siyasi parçalanmalar arasında hansı uyğunsuzluqlar var? Böyük güclər veto hüquqndan əl çəkməyə hazırdırmı? Qlobal Cənub öz maraqlarını yalnız bəyanatlarla, yoxsa institusional dəyişikliklərlə müdafiə edə biləcəkmi?

***

Qərb dövlətlərinin ritorikasının Ukraynanın müdafiəsi və Moskvanın təcridinə yönələcəyi indidən aydındır. Onların arqumentləri beynəlxalq hüququn üstünlüyünə söykənəcək, eyni zamanda, humanitar aspektlər qabardılacaq. Amma bu yanaşmanın təsir gücü məhduddur, çünki Qlobal Cənub dövlətləri bu ritorikanı çox vaxt Qərbin hegemon təsirinin davamı kimi qəbul edirlər. Bu parçalanma Baş Assambleyanın qərarvermə mexanizmlərinə necə təsir göstərəcək? Cavab ondan ibarətdir ki, qətnamələrin çoxu Ukraynanın suverenliyinə dəstək mesajları ilə müşayiət olunsa da, kəskin söz seçimi, məsələn, "işğal" və ya "təcavüz" kimi ifadələr səsverməni parçalaya bilər. BMT institutlarının struktur məhdudiyyətləri də vəziyyətin mürəkkəbliyini artırır. Baş Assambleya qlobal konsensus üçün açıq platformadır, lakin Təhlükəsizlik Şurasındakı veto mexanizmi praktiki addımları bloklayır. Rusiya veto hüququndan istifadə edərək istənilən qərarı neytrallaşdırır, nəticədə Baş Assambleya simvolik və siyasi təzyiq tribunasına çevrilir.

Mümkün ssenarilərə nəzər yetirdikdə, ən realist olanı ritorikanın intensivləşməsi ilə yanaşı, institusional blokadanın davam etməsidir. Humanitar məsələlərdə məhdud konsensus mümkündür, amma hərbi-strateji sahədə parçalanma qalacaq. Alternativ olaraq, Qlobal Cənubun daha açıq mövqe sərgiləməsi və Çin–Rusiya tandeminin koordinasiyasını artırması nəticəsində yeni bloklaşma xətti də güclənə bilər.

Ortaya maraqlı bir sual çıxır: ABŞ, Rusiya, Çin, Hindistan və Braziliya kimi lider aktorların konkret nitq strategiyaları bu parçalanmanı dərinləşdirəcəkmi, yoxsa müəyyən yumşalma imkanları yarada biləcək? Sualın cavabı sessiyanın ən kritik məqamlarından biri olacaq.

***

Qəzza məsələsi BMT Baş Assambleyasının 80-ci sessiyasında beynəlxalq sistemdəki ikili standartların bariz nümunəsi kimi təqdim olunacaq. Qəzzadakı humanitar fəlakət minlərlə mülki qurban, dağılmış infrastruktur və yüzminlərlə məcburi köçkünlə özünü göstərir. Həmin mənzərə BMT-nin humanitar mandatını birbaşa hərəkətə çağırır, amma əsas dilemma budur: Assambleya real nəticəyə yönəlik hansısa addım ata biləcək, yoxsa müzakirələr yenə də emosionallığın və ritorikanın fövqündə qalacaq?

Qlobal güclərin mövqeyi də məsələnin mürəkkəbliyini artırır. ABŞ və onun yaxın müttəfiqləri İsraili dəstəkləyərək mövzunu "təhlükəsizlik" və "terrorizmə qarşı mübarizə" kontekstinə çəkməyə çalışacaq. Avropa ölkələrinin bir qismi daha balanslı, humanitar yönümlü çıxışlar etsə də, Vaşinqtonun sərt xəttini tam əksinə çevirmək niyyətində olmayacaq. Rusiya və Çin isə Fələstin məsələsini beynəlxalq tribunda Qərbin ikili standartlarını ifşa etmək üçün siyasi vasitəyə çevirəcək. Onların ritorikası daha çox "ədalətin selektiv tətbiqi" və "hegemon təsirin davamı" kimi tezislərə söykənəcək. Bunlar Baş Assambleyada konsensus imkanlarını zəiflədir, çünki Təhlükəsizlik Şurasında ABŞ-ın veto hüququ istənilən real addımı bloklayır, Assambleyada qəbul olunacaq qətnamələr isə yalnız simvolik məna daşıyır.

Ən real ssenari Baş Assambleyada humanitar yardım və atəşkəs çağırışları ilə bağlı yumşaq qətnamələrin qəbul olunmasıdır. Lakin bu, daha çox siyasi simvolizm rolunu oynayacaq. Digər ehtimal isə ritorik qarşıdurmanın güclənməsi, ərəb-müsəlman dünyasının emosional çıxışlarının Qərb dövlətlərinin mövqeyi ilə sərt toqquşmasıdır. Prosesdə Qlobal Cənub ölkələrinin dəstəyi ilə Fələstin məsələsinin bir daha "qlobal ədalət gündəliyi"nin tərkib hissəsinə çevrilməsi mümkündür. Amma həlledici sual açıq qalır: BMT tribunasından səslənəcək çıxışlar Fələstin məsələsini beynəlxalq hüququn və humanitar ədalətin mərkəzinə qaytara biləcəkmi? Yoxsa bu mövzu yenə də böyük güclərin maraq oyunlarının girovunda qalacaq? Bu sual Baş Assambleyanın 80-ci sessiyasının ən ciddi siyasi-analitik dilemmasıdır.



***

Dayanıqlı İnkişaf Məqsədləri və iqlim böhranı BMT Baş Assambleyasının 80-ci sessiyasında qlobal diqqətin mərkəzində olacaq, çünki bu mövzular beynəlxalq təhlükəsizlik və geosiyasi sabitliklə sıx bağlı problem kimi qəbul edilir. Qlobal istiləşmə, su qıtlığı, ərzaq təhlükəsizliyi, təbii fəlakətlərin intensivləşməsi və məcburi miqrasiya dalğaları bütün dövlətlər üçün ortaq təhlükədir. Bəs böyük güclərin siyasi rəqabəti fonunda bu sahədə real əməkdaşlıq mümkündürmü?

Əslində, Dayanıqlı İnkişaf Məqsədləri 2030-cu ilədək yoxsulluğun azaldılması, bərabər imkanların yaradılması, təmiz enerji keçidi və ekoloji balansın qorunması kimi ümumbəşəri hədəflər müəyyən etsə də, praktiki icra ilə bağlı mənzərə parçalanıb. BMT tribunasından Qərb dövlətləri, xüsusilə Avropa İttifaqı üzvləri "yaşıl keçid", karbon neytrallığı və enerji transformasiyasını ön plana çıxaracaqlar. ABŞ isə bu sahədə liderlik iddiasını gücləndirmək, həm texnologiya, həm maliyyə mexanizmləri ilə təsirini artırmaq istəyəcək. Çin özünü iqlim gündəminin əsas oyunçusu kimi təqdim etməyə çalışacaq, lakin Pekin üçün əsas prioritet enerji təhlükəsizliyidir; buna görə qlobal səviyyədə tam "yaşıl əməkdaşlıq" xəttinə qoşulmaqdan çox, milli maraqları qoruyan balanslı mövqe sərgiləyəcək.

Qlobal Cənub dövlətləri bu müzakirələrdə daha çox maliyyə və texnologiya transferini gündəmə gətirəcəklər. Onlar hesab edirlər ki, inkişaf etmiş ölkələrin tarixi məsuliyyəti daha böyükdür və iqlim dəyişikliyinə uyğunlaşma üçün resurs təmin etmək onların öhdəliyidir. Əsas dilemma budur: Dayanıqlı İnkişaf Məqsədləri və iqlim böhranı ətrafında qlobal həmrəylik rəsmi çıxışlarda səslənsə də, praktiki planda dövlətlər daha çox öz iqtisadi maraqlarını qoruyur. BMT platforması bu paradoksu aradan qaldırmağa cəhd edir, amma böyüklər arasında güc rəqabəti və iqtisadi üstünlüklər uğrunda mübarizə ortaq öhdəlikləri zəiflədir.

Maraqlıdır: İqlim və inkişaf məsələləri həqiqətən də qlobal həmrəylik yaratmaq potensialına malikdirmi, yoxsa onlar da Rusiya–Ukrayna və Qəzza mövzuları kimi geosiyasi parçalanmanın daha bir arenasına çevriləcək? Cavab aydındır: Müəyyən sahələrdə (humanitar yardım, texnologiya transferi, iqlim fondu mexanizmləri) məhdud konsensus mümkündür, amma strateji səviyyədə qlobal idarəçilik yenə də güc balansının diktəsi altında qalacaq.

***

Diplomatik simvolika həmişə BMT Baş Assambleyası kimi qlobal tribunanın açılış mərasimlərində xüsusi önəm daşıyır. Braziliyanın ənənəvi olaraq ilk çıxışı etməsi təkcə tarixi protokol deyil, həm də beynəlxalq münasibətlərdə müəyyən simvolik balansı qoruyan diplomatik jestdir. Ənənənin kökü 1950-ci illərə gedib çıxır: Həmin dövrdə böyük güclər çıxış ardıcıllığı barədə razılığa gələ bilmədiklərindən Braziliya könüllü şəkildə önə çıxaraq açılış nitqi etməyi öhdəsinə götürmüşdü. Bu il isə Braziliya Prezidenti Luis İnasio Lula da Silva kürsüyə çıxdıqda, sadəcə, ənənəni davam etdirməyəcək, həm də Qlobal Cənubun səsini ifadə edəcək. Lulanın çıxışından gözləntilər ondan ibarətdir ki, Braziliya beynəlxalq sistemdə daha inklüziv, balanslı və ədalətli nizam tələbini səsləndirəcək. Onun mesajlarının başqa bir mühüm istiqaməti, çox güman ki, iqlim böhranı ilə bağlı olacaq.

***

BMT-nin 80-ci sessiyası, əslində, iki paralel mərkəz ətrafında formalaşır: Birincisi, konkret böhranların – Rusiya-Ukrayna müharibəsi, Qəzza böhranı, iqlim böhranı və s. – müzakirəsi; ikincisi isə beynəlxalq təşkilatın özünün gələcəyi və legitimliyi ilə bağlı suallar. Bu istiqamətlər bir-birini tamamlayır. BMT-nin böhranlara verdiyi cavab onun effektivliyini, gələcək funksional çəkisini müəyyən edir.

Əsas problem ondan ibarətdir ki, TŞ-nin veto mexanizmi qlobal konsensusun qarşısında sistemli baryerə çevrilib. Böyük dövlətlər veto hüququndan yalnız milli maraqları qorumaq üçün deyil, həm də beynəlxalq hüququ selektiv tətbiq etmək üçün istifadə edirlər. Bunlar Ukrayna böhranında, Yaxın Şərq münaqişələrində açıq görünür. Nəticədə, Baş Assambleya simvolik qərarlar qəbul edir, lakin real icra imkanları məhdud qalır. Təbii ki, bu amil təşkilatın legitimliyini zədələyir və "BMT-nin XXI əsrin reallıqlarına uyğun islahatı mümkündürmü?" sualını aktuallaşdırır. BMT gələcəkdə daha inklüziv və ədalətli bir platformaya çevriləcəkmi, yoxsa böyük güclərin maraqlarının əsirində qalaraq qlobal fraqmentasiyanı dərinləşdirəcək? Reallıq deyir ki, yaxın perspektivdə BMT-də radikal islahatlar gözlənilmir. Amma "qlobal Cənub"un artan fəallığı və yeni regional güc mərkəzlərinin təşəbbüsləri təşkilatı siyasi təzyiq altında saxlayacaq. Beləliklə, 80-ci sessiyanın yekun mesajı: BMT hələ də qlobal legitimlik simvoludur, onun effektiv beynəlxalq idarəçilik mexanizminə çevrilməsi məsələsi açıq qalır. Ən real nəticə – qlobal konsensusun möhkəmlənməsi deyil, fraqmentasiyanın daha dərindən hiss olunması olacaq. Amma bunun özü də gələcəkdə təşkilatda islahata siyasi təkan verə bilər.

***Şəbnəm İLQARQIZI,***
***XQ-nin siyasi analitiki***

# Nyu-Yorkda sinxron açıqlama: Qafqazda sülhə doğru önəmli addım

**Azərbaycan və Ermənistan arasında münasibətlər hazırda tarixin ən mühüm dönüş anlarından birini yaşayır. İkinci Qarabağ müharibəsi və 2023-cü ildə keçirilən antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü tam bərpa olundu, bölgədə uzun illər davam edən işğal siyasəti tarixə qovuşdu. Bu, təkcə hərbi-siyasi qələbə deyil, həm də Cənubi Qafqazda yeni geosiyasi reallığın yaranması deməkdir. İndi söhbət müharibə, münaqişə və eskalasiyadan yox, sülhdən, qarşılıqlı etimadın bərpasından və gələcək əməkdaşlıqdan gedir.**

Rəsmi Bakı dəfələrlə bəyan edib ki, əsas məqsəd Ermənistanla dayanıqlı sülh əldə etmək, sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında sazişi imzalamaq, kommunikasiyaları açmaq və regionda sabitliyi təmin etməkdir. Eyni zamanda, rəsmi İrəvan da sülh sazişinin imzalanmasında maraqlıdır. Buna baxmayaraq, Ermənistanda hələ də daxili siyasi ziddiyyətlər, revanşist qüvvələrin təzyiqləri və xaricdəki bəzi dairələrin təsiri bu prosesə mane olur. Nikol Paşinyanın sülhə dair açıqlamaları daxildə radikal müxalifət tərəfindən "xəyanət" kimi qələmə verilir. Amma zaman göstərir ki, Azərbaycanın iradəsi, regional inteqrasiyanın labüdlüyü və ABŞ, Türkiyə və Avropa İttifaqı kimi böyük güclərin maraqları bu istiqamətdə geriyə yol qoymur. Azərbaycan–Ermənistan münasibətlərinin hazırkı səviyyəsi sülhə ümidlər verir.

Müharibəni udan Azərbaycanın sülhü qazanmasına gedən yol heç də hamar olmadı. Savaşdan sonrakı ilk dövrləri, xüsusilə 2020–2021-ci illəri "ziddiyyətli ritorika dövrü" adlandırmaq doğru olar. Çünki müharibədən dərhal sonra Ermənistan hakimiyyəti ziddiyyətli mövqedə idi. Bir tərəfdən Paşinyan təslim aktını imzalayan lider kimi öz xalqı qarşısında izahat verməli idi. Digər tərəfdən, daxildəki revanşist qüvvələrin təzyiqi onu sərt ritorika saxlamağa məcbur edirdi. Bu səbəbdən İrəvan bir gün "sülh"dən, ertəsi gün isə "Qarabağın statusu"ndan danışırdı.

Rusiya–Ukrayna müharibəsi başlayandan sonra Ermənistanın manevr imkanları məhdudlaşdı. Moskvanın zəifləməsi fonunda Paşinyan Qərbə meyil göstərməyə çalışdı. Brüssel formatı, Aİ vasitəçiliyi ilə aparılan danışıqlar gündəmə gəldi. Amma bu mərhələdə də Ermənistanın mövqeyi qeyri-müəyyən idi: İrəvan həm sülhdən danışır, həm də Qarabağdakı separatçıları dəstəkləməkdə davam edirdi. Azərbaycanın qətiyyətli mövqeyi və beynəlxalq arenada artan nüfuzu belə vəziyyətin davamına imkan vermirdi. Ölkəmiz 2023-cü il sentyabrın 19-20-də keçirdiyi antiterror əməliyyatı ilə separatçı silahlı birləşmələrin fəaliyyətinə son qoydu. "Qarabağın statusu" anlayışı birdəfəlik ortadan qaldırıldı. Bu əməliyyat İrəvan üçün dönməz mesaj oldu: artıq heç bir beynəlxalq güc Azərbaycanın suverenliyini şübhə altına ala bilməz. Ermənistan rəhbərliyi başa düşdü ki, müharibə yolu ilə heç nə qazana bilməz, "status" uğrunda mübarizə isə sadəcə vaxt itkisidir.

Sonrakı mərhələdə Paşinyan hökuməti açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünü tanımağa başladı. Ermənistan Konstitusiyasında hələ də "Miatsum" ideyası və Azərbaycan ərazilərinə iddialar qalsa da, praktiki siyasət kursu dəyişdi. İrəvan artıq anlayır ki, sülh sazişi imzalanmasa, ölkə həm iqtisadi, həm də geosiyasi təcriddə qalacaq. Regiondakı bütün kommunikasiyaların açılması, tranzit imkanlarının reallaşması Ermənistanın inkişafı üçün yeganə yoldur. Bu həqiqət cəmiyyətdə də, hakimiyyətdə də getdikcə daha çox qəbul edilir.

N.Paşinyanın sentyabrın 20-də hakim "Mülki müqavilə" partiyasının VII qurultayında etdiyi çıxış isə tamamilə fərqli reallıqların yaranmasından xəbər verir. O bildirib ki, məhz indi sülh üçün şərait yaradılıb: "Partiyamızın sonuncu qurultayından sonrakı dövrdə bəyan etmişdim ki, əgər biz 2-3 il ərzində dövlətin mövcudluğunu təmin edə bilsək, bundan sonrakı əsrlərdə də varlığını təmin edəcəyik. Bu gün, üç ildən sonra mən hakim partiyanın qurultayında, 1 il 7 aydır heç bir əsgərin atəş nəticəsində ölmədiyi və yaralanmadığı şəraitdə sizin qarşınızda dayanmışam. Azərbaycanla sülh bəyannaməsi imzalanıb, dövlətlərarası münasibətlərin qurulması haqqında saziş razılaşdırılıb. Bu gün Ermənistanda gələcək əsrlər boyu həyatın əsas xüsusiyyətlərini müəyyən edəcək qərarlar qəbul edəcəyik".



Baş nazirin sözlərinə görə, ölkəsi tamamilə yeni dövrə qədəm qoyub, Ermənistanla Azərbaycan arasında sülh yaranıb: "Avqustun 8-i uzun bir prosesin kulminasiya nöqtəsi oldu".

***

Sentyabrın 22-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Ermənistandan olan həmkarı Ararat Mirzoyan arasında keçirilən görüşə də bu proseslər çərçivəsində yanaşmaq mümkündür. Qeyd edək ki, görüş Nyu-York şəhərində BMT Baş Assambleyasının sessiyası çərçivəsində baş tutub. Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı məlumata görə, nazirlər 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilmiş sülh sammitinin nəticələrinə əsaslanaraq, sülh gündəliyinin irəli aparılması üçün mümkün növbəti addımlar barədə fikir mübadiləsi ediblər, dialoqu davam etdirmək barədə razılığa gəliblər.

Görüşlə bağlı Ermənistan Xarci İşlər Nazirliyi də məlumat yayıb. Həmin mətn Azərbaycan tərəfinin yaydığı məzmunla tam üst-üstə düşür.

Ümumiyyətlə, nazirlərin görüşü Azərbaycan–Ermənistan münasibətlərində diqqətçəkən hadisədir. Bu görüşə təkcə diplomatik təmas kimi yox, həm də sülh prosesinin dinamikasının göstəricisi kimi yanaşmaq olar. Çünki tərəflərin mövqelərində son aylarda müşahidə olunan yaxınlaşma indi konkret addımlara çevrilməkdədir. Azərbaycan XİN-in yaydığı məlumatda əksini tapan "tərəflər 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilən sülh sammitinin nəticələrinə əsaslanaraq sülh gündəliyini irəli aparmaq üçün mümkün addımları müzakirə ediblər" sözləri təsadüfi sayıla bilməz. Çünki Vaşinqton sammiti iki ölkənin danışıqlarda "ortaq zəmində" irəliləməsi üçün mühüm mərhələ olmuşdu. İndi Nyu-York görüşündə həmin zəminin möhkəmləndirildiyi görünür. Ən önəmlisi odur ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlikləri eyni məzmunlu açıqlama yayıblar. Bu, uzun illər davam etmiş informasiya müharibəsi fonunda mühüm yenilikdir və tərəflərin müəyyən məsələlərdə "ortaq dildə" danışdığını göstərir.

Məsələnin digər tərəfi isə siyasi simvolizmdir. Görüşün məhz BMT Baş Assambleyası çərçivəsində keçirilməsi beynəlxalq ictimaiyyətə ünvanlanmış mesajdır. Bakı və İrəvan bununla öz problemlərini dialoq yolu ilə həll etməyə hazır olduqlarını nümayiş etdirirlər. Bu, regionda yeni münaqişə dalğası gözləyən dairələrə verilən cavab kimi dəyərləndirilə bilər. Tərəflərin dialoqu davam etdirmək barədə razılığa gəlməsi o deməkdir ki, qarşıdakı aylarda konkret sənəd üzərində intensiv iş başlaya bilər. Əvvəllər Ermənistan tərəfi müxtəlif bəhanələrlə prosesi ləngidirdi, bəzən də müxtəlif kanallar vasitəsilə ziddiyyətli bəyanatlar səsləndirirdi. İndi isə hər iki ölkənin xarici siyasət idarələrinin eyni mövqedən çıxış etməsi Paşinyan hökumətinin daha real xətt seçdiyinə işarədir.

Əlbəttə, sülh yolunda hələ də ciddi maneələr qalır. Ermənistan cəmiyyətində revanşist dairələr mövcuddur, bəzi xarici qüvvələr isə regionda gərginliyin saxlanılmasında maraqlıdır. Lakin Nyu-York görüşü göstərdi ki, ən azı dövlətlər səviyyəsində dialoq iradəsi güclənib. Bu iradə möhkəmlənərsə, yaxın illərdə Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanması real perspektivə çevrilə bilər. Beləliklə, Nyu-Yorkda keçirilən Bayramov–Mirzoyan görüşü həm siyasi məna, həm də diplomatik simvolizm baxımından mühüm hadisədir. O, göstərir ki, İrəvan artıq "nala-mıxa vuran" siyasətdən uzaqlaşıb, real gündəlik ətrafında dialoqu davam etdirmək əzmindədirlər. Bu isə Azərbaycan və Ermənistan münasibətlərində yeni mərhələnin başlanğıcı ola bilər.

***Səxavət HƏMİD***
***XQ***

# Dünya maliyyə nəhənglərinin Azərbaycan lideri ilə görüş fürsəti

**Azərbaycan Prezident İlham Əliyevin Nyu-York səfəri və burada keçirdiyi ilk görüşlər qlobal maliyyə nəhənglərinin Azərbaycanın iqtisadi siyasətinə və strateji layihələrinə yönəlmiş ciddi maraqlarının əyani təzahürüdür. “Brookfield Asset Management”, “Neuberger Berman” və “Blackstone” kimi maliyyə nəhəngləri üçün ölkəmizə sərmayə qoymaq yalnız coğrafi mövqe və enerji resurslarının cəlbediciliyi ilə məhdudlaşmır. Qarşı tərəfin müraciətləri əsasında reallaşan görüşlərdə diqqət İlham Əliyevin iqtisadi idarəetmə qabiliyyətinə, qərarvermə çevikliyinə və strateji liderlik vizyonuna yönəlib.**



İqtisadi idarəetmə qabiliyyəti ilə İlham Əliyev ölkənin makroiqtisadi göstəricilərini, investisiya şəraitini və sektorlararası balansı səmərəli şəkildə idarə edir, uzunmüddətli iqtisadi planları uğurla həyata keçirir. Qərarvermə çevikliyi isə özünü qlobal maliyyə və enerji bazarlarındakı ani dəyişikliklərə operativ reaksiya verərək riskləri minimallaşdırmaq və investorların etimadını təmin etmək bacarığında göstərdi. Strateji liderlik dedikdə isə İlham Əliyevin regional və qlobal iqtisadi məkanlarda Azərbaycanın mövqeyini möhkəmləndirmək, enerji və tranzit layihələrini strateji prioritetlərlə birləşdirərək uzunmüddətli perspektivdə cəlbedici investisiya mühiti yaratması nəzərdə tutulur. Bunlar siyasi imiclə birləşdikdə İlham Əliyevin iqtisadi siyasətdə və strateji qərarlarda fərdi rolu həm də ölkənin diplomatik və regional nüfuzunu gücləndirir.

İlham Əliyevin beynəlxalq maliyyə institutları ilə birbaşa dialoqu qlobal investorlar üçün riskin qiymətləndirilməsi və investisiya qərarlarının verilməsi baxımından önəmli siqnaldır. Qlobal maliyyə qurumları üçün layihələrin uğuru yalnız iqtisadi göstəricilər və bazar şərtlərindən asılı deyil, həm də liderin vizyonu, qərarvermə sürəti və proqnozlaşdırıla bilən siyasət mexanizmlərinə bağlıdır. İlham Əliyevin iqtisadi strategiyası və institusional idarəetmə təcrübəsi transmilli qurumlar üçün layihələrin vaxtında icrası və uzunmüddətli rentabellik baxımından etibarlı meyar rolunu oynayır. Məhz bu baxımdan liderin şəxsi nüfuzu və idarəetmə qabiliyyəti ölkəyə yönələn kapital axınını təyin edən mühüm göstəriciyə çevrilir.

Böyük beynəlxalq investorlar, xüsusilə real aktivlər və infrastruktur sahələrində fəaliyyət göstərən “Brookfield” və “Blackstone” kimi şirkətlər layihələrə yalnız güclü etimad və şəffaf idarəetmə çərçivəsi olan ölkələrdə yatırım etməyə meyillidirlər. Elə bu nöqteyi-nəzərdən, ölkə liderinin şəxsi iştirakı həm dövlət strukturlarının koordinasiyasını təmin edir, həm də qlobal kapital üçün risklərin minimuma endirilməsində açar rolunu oynayır. İstər infrastruktur layihələri, istərsə də şəhər və enerji investisiyaları olsun, yüksək səviyyəli liderlik investorların etimadını formalaşdırır və onları Azərbaycan bazarına istiqamətləndirir.

Eyni zamanda, qlobal kapitalın cəlbi, sadəcə, investisiya həcmi ilə məhdudlaşmır. Aktiv idarəçiliyi sahəsində ixtisaslaşan “Neuberger Berman” kimi şirkətlər üçün yerli bazara çıxış, suveren fondlar və dövlət institutları ilə davamlı və etibarlı dialoq tələb edir. İlham Əliyevin bu dialoqa şəxsən qatılması və strateji təşəbbüslərlə dəstəkləməsi investorlar üçün hər hansı bürokratik maneəni minimuma endirir və investisiyaların icrasını sürətləndirir. Beləliklə, liderin iqtisadi siyasətə və beynəlxalq maliyyə institutları ilə əlaqəyə birbaşa müdaxiləsi Azərbaycanın qlobal kapital üçün həm etibarlı, həm də strateji seçim olaraq önə çıxmasını təmin edir.

Qlobal investorlar üçün Azərbaycanın iqtisadi perspektivləri yalnız makroiqtisadi göstəricilərdən ibarət deyil; onlar risk və gəlir balansını, sektorlar üzrə gəlirlilik proqnozlarını diqqətlə qiymətləndirirlər. Bu mənzərə investorlar üçün strateji qərarvermədə etibar meyarıdır. Enerji sektoru, xüsusilə neft və qaz ixracatı Azərbaycan üçün ənənəvi olaraq əsas gəlir mənbəyidir. Amma qlobal fondlar bu sahədəki gəlirlilik və riskləri yerli idarəetmə və beynəlxalq bazar şərtləri ilə birgə nəzərdən keçirir. Eyni zamanda, qeyri-enerji sektorlarına– infrastruktur, daşınmaz əmlak, logistika və rəqəmsal xidmətlər yatırımların gəlirliliyi və strateji əhəmiyyəti investorların ölkəyə uzunmüddətli kapital axını baxımından marağını artırır.

Azərbaycanın regional tranzit və enerji strateqiyası da investorların diqqət mərkəzindədir. Ölkə Cənubi Qafqaz və Avropa bazarına çıxışın etibarlı qapısı kimi qiymətləndirilir. Bu amil qlobal fondların investisiya qərarlarını verərkən liderin siyasi dəstəyini və dövlət strategiyasının sabitliyini önəmli faktor kimi qəbul etməsi ilə bağlıdır. İlham Əliyevin təşəbbüsü ilə formalaşdırılan strateji vizyon enerji və logistika korridorlarının təhlükəsizliyi və şəffaf idarə olunması investorlar üçün riskləri minimuma endirir və potensial gəlirlilik imkanlarını artırır.

Eyni zamanda, ölkədə maliyyə və institusional çərçivələrin şəffaflığı və qaydaya salınması qlobal investorların yerli bazara daxil olmasını daha əlçatan edir. Çərçivələr yalnız iqtisadi maraqları deyil, strateji baxışları da dəstəkləyir: İnvestorlar Azərbaycanın həm enerji, həm infrastruktur, həm də maliyyə sahələrində sabit və etibarlı tərəfdaş olduğunu görürlər. Nəticədə, qlobal maliyyə nəhəngləri Azərbaycanla əməkdaşlığa təşviq olunur, çünki ölkədəki iqtisadi şəffaflıq, siyasi sabitlik və liderin aktiv rolu onların sərmayələrinin həm təhlükəsiz, həm də strateji baxımdan səmərəli olmasını təmin edir.

Prezident İlham Əliyevlə görüşlərin təşkili qlobal kapital üçün Azərbaycanın iqtisadi siyasətinin və strateji layihələrinin “qarantı” funksiyasını daşıyır. İlham Əliyevin şəxsi iştirakı və liderlik rolu investorların uzunmüddətli strateji etibarlılığı qiymətləndirmələrinə birbaşa təsir edir. Bütün bunlar Azərbaycanın beynəlxalq səviyyədə etibarlı tərəfdaş imicini gücləndirir və regionda liderin nüfuzunu artırır, investorlar üçün ölkəni risklərin nisbətən aşağı olduğu və layihələrin vaxtında icra olunduğu bir məkan kimi göstərir.

Eyni zamanda, qlobal maliyyə nəhəngləri liderin siyasi nüfuzunu və qərarvermə çevikliyini diqqətlə izləyir. Təbii ki, bu həm də strateji baxımdan sərmayələrin təminat altına alınması deməkdir. İlham Əliyevin iqtisadi siyasətdə göstərdiyi ardıcıllıq və çevik reaksiya qabiliyyəti investorların Azərbaycanın bazarına yönələn kapital axınlarını həm qısa, həm də uzunmüddətli perspektivdə etibarlı hesab etməsinə imkan yaradır.

Bundan əlavə, bu görüşlər region və qonşu ölkələr üçün də güclü strateji mesaj daşıyır. Qlobal investorlar üçün Azərbaycanın iqtisadi siyasətində liderliyin möhkəmliyi, şəffaf və hesabatlı investisiya mühitinin mövcudluğu ölkəni regional sabitlik və etibarlılıq nöqteyi-nəzərindən cəlbedici edir. Nəticədə, bu dialoqlar həm xarici kapitalın ölkəyə yönəlməsini stimullaşdırır, həm də Azərbaycanın regional və qlobal iqtisadi nüfuzunun artmasına xidmət edir, ölkəni yalnız enerji və resurs ixracçısı kimi deyil, strateji qərarverici və etibarlı tərəfdaş kimi təqdim edir.

Son olaraq qeyd edək ki, Prezident İlham Əliyevin liderliyi investisiya qərarlarında əsas ölçü meyarına çevrilib, qlobal kapitalın ölkəyə yönəlməsini təmin edir. Proses həm yerli bazarın diversifikasiyasına, həm də Azərbaycanın regional və qlobal iqtisadi nüfuzunun güclənməsinə xidmət edir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Ölkəmizin iqtisadi potensialı BMT dialoqlarında

## *Dövlət başçısının Nyu-York gündəliyində şaxələndirmə və innovativ infrastruktur müzakirələri*



**Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarına səfəri Azərbaycanın dünyada artan nüfuzunun və çoxtərəfli diplomatiyada fəal mövqeyinin canlı ifadəsidir. ABŞ-ın aparıcı maliyyə qurumları, qlobal korporasiyaları və yüksək texnologiyalara yönəlmiş şirkətləri ilə keçirilən görüşlərin qarşı tərəfin müraciəti əsasında reallaşması faktı Azərbaycanın beynəlxalq miqyasda etibarlı tərəfdaş kimi qəbul edilməsinin, ölkəmizə olan inamın parlaq göstəricisidir. Strateji investisiya layihələrinin müzakirəsi, onun şaxələndirilməsi, innovativ texnologiyaların tətbiqi, qabaqcıl idarəetmə modellərinin gətirilməsi və infrastrukturun yenilənməsi üçün geniş üfüq açan görüşlər ölkəmizin beynəlxalq əməkdaşlıq xəritəsindəki mövqeyinin daha da möhkəmlənməsinə xidmət edən tarixi addımdır.**

Dövlət başçısının Nyu-Yorkda dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan “Brookfield Asset Management” şirkətinin baş icraçı direktoru Brüs Flətt ilə görüşü olduqca böyük önəm kəsb edir. Söhbət zamanı Brüs Flətt 2023-cü ildə Azərbaycana səfəri zamanı ölkəmizdə əldə olunan iqtisadi uğurların və sürətli inkişafın onda dərin təəssürat yaratdığını qeyd edib. Görüş zamanı Azərbaycanın bərpa olunan enerji potensialı və ölkəmizin regional enerji mərkəzinə çevrilməsi istiqamətində perspektivlər ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, “Brookfield Asset Management” şirkəti 1899-cu ildə yaradılıb və idarə etdiyi aktivlərin ümumi həcmi, təxminən 1 trilyon ABŞ dolları təşkil edir. Şirkətin baş ofisi Kanadanın Toronto şəhərində yerləşir və 30-dan çox ölkədə, müxtəlif sektorlar üzrə 2 min 500-dən çox aktiv idarə olunur. Təxminən 2 min institusional investor–suveren fondlar, milli pensiya fondları, sığorta şirkətləri və digər idarəetmə qurumlar şirkətə sərmayə yatırır. Regionlar üzrə aktivlərin payı isə ABŞ-da 550 milyard, Avropa və Orta Şərqdə 230 milyard, Asiya-Sakit Okeanda 152 milyard, Kanadada 66 milyard, Cənubi Amerikada 61 milyard ABŞ dolları səviyyəsindədir. Bərpa olunan enerji sahəsində də perspektiv böyükdür. 1999-cu ildən etibarən hidroportfeldən istifadə edərək bərpa olunan enerji sahəsini genişləndirib. 2017-ci ildən sonra qlobal səviyyədə ən böyük operatorlardan birinə çevrilib. İdarə olunan bərpa olunan enerji gücü təxminən 43 qiqavat işlək və 227 qiqavat inkişaf xətti həcmi səviyyəsində qiymətləndirilir.

Yeri gəlmişkən, ARDNF 2019-cu ildən həmin şirkətlə strateji tərəfdaşlıq qurub və müxtəlif fondlara cəmi 660 milyon ABŞ dolları səviyyəsində sərmayə yatırılıb. Bu əməkdaşlıq bərpa olunan enerji, logistika, telekom, data mərkəzləri, təhsil və infrastruktur sahələrində layihələrin reallaşmasına imkan yarada bilər.

Prezident İlham Əliyevin “Neuberger Berman” şirkətinin sədri və baş icraçı direktoru Corc Volker ilə görüşündə də bir sıra məsələlər müzakirə olunub. Söhbət zamanı Azərbaycanla şirkət arasında mövcud əməkdaşlıq, gələcək inkişaf imkanları və yeni layihələr ətrafında fikir mübadiləsi aparılıb. Xatırladaq ki, şirkət aparıcı qlobal investisiya koorperasiyası kimi tanınır. Hazırda 538 milyard ABŞ dolları aktiv idarə edir ki, bu vəsaitin 140 milyard dolları alternativ investisiyalara yönəldilib. 26 ölkədə ofisləri olan “Neuberger Berman” səhmlər, istiqrazlar, hedc fondları, daşınmaz əmlak, infrastruktur və özəl səhmlər kimi aktiv növləri üzrə investisiyalar həyata keçirir. “Nord Anglia Education”, “Solenis” kimi yatırımlar şirkətin portfelində önəmli yerə sahibdir. “Neuberger Berman” digər investorlarlardan ibarət olan konsorsiuma rəhbərlik edərək dünyanın 30 ölkəsində yerləşən və təxminən 80-100 məktəbdən ibarət qlobal “K-12” məktəblər qrupunda paya sahibdir.

“Neuberger Berman” ilə ARDNF-in strateji əməkdaşlığı 2016-cı ildən etibarən başlanıb. Xüsusi idarəetmə mandatı çərçivəsində ARDNF tərəfindən müxtəlif tranşlar vasitəsilə, ümumilikdə, təxmini 600 milyon ABŞ dolları sərmayə qoyulub. “Neuberger Berman” əsasən informasiya texnologiyaları, istehlak/elektron ticarət, sənaye texnologiyaları və səhiyyə sahələrinə yatırımlar edir. Bu sahələrdə əsasən mühüm trendlərdən fayda gözləyən şirkətlərə investisiya qoyuluşu müxtəlif makro-iqtisadi şəraitlərə dayanıqlılığını təmin edir.

Dünyanın ən nüfuzlu investisiya şirkətlərindən biri olan “Blackstone”un prezidenti və baş əməliyyat direktoru Conatan Qrey ilə görüş də dövlət başçısının Nyu-York səfəri çərçivəsində baş tutub. Conatan Qrey çıxışında vurğulayıb ki, Azərbaycanda həyata keçirilən genişmiqyaslı iqtisadi islahatlar və dinamik inkişaf beynəlxalq investorlar üçün yeni imkanlar açır. O, “Blackstone”un Azərbaycanla, xüsusilə də Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlığının daha da genişlənməsində maraqlı olduqlarını bildirib və ölkəmizdə formalaşmış əlverişli investisiya mühitinə yüksək dəyər verdiyini qeyd edib.

Təsadüfi deyil ki, 1985-ci ildə yaradılan “Blackstone” bu gün alternativ investisiyalar üzrə dünyanın ən güclü maliyyə menecerlərindən biri hesab olunur. Şirkət özəl səhm, daşınmaz əmlak, kredit, infrastruktur, data mərkəzləri və bərpa olunan enerji sahələrində, ümumilikdə, 1,2 trilyon ABŞ dolları həcmində aktivlər idarə edir. Bu göstərici dünya ümumi daxili məhsulunun bir faizindən çoxuna bərabərdir və bir sıra dövlətlərin iqtisadiyyatından daha böyük həcmə malikdir. Minlərlə institusional investorun – suveren fondların, pensiya fondlarının, sığorta şirkətlərinin və nüfuzlu universitetlərin maliyyə resurslarını, eyni zamanda, milyonlarla fərdi sərmayəçinin vəsaitlərini idarə edir. Başqa sözlə, yüz milyonlarla insan uzunmüddətli yığımlarının idarəsini “Blackstone”a etibar edib.

Şirkət bu gün dünyada 12 minədək daşınmaz əmlaka sahibdir. 2023-cü ildə “Blackstone Real Estate Partners X” fondu 30,4 milyard dollar toplayaraq tarixdə ən böyük özəl daşınmaz əmlak fondu kimi qeydə alınıb. 2007-ci ildə isə “Hilton” hotellər şəbəkəsinin 26 milyard dollara alınması hotel biznesində ən iri əməliyyatlardan biri olub. Logistika sahəsində isə “Link Logistics” platforması 46 milyon kvadratmetr anbar və logistika mərkəzi idarə edir. Bu göstərici Polşanın bütün logistika gücünə paralel hesab edilir. Şirkət həmçinin 2022-ci ildə Avropanın ən böyük şəhərdaxili logistika platforması “Mileway”i 21 milyard avro dəyərində rekapitalizasiya edərək tarixdə ən iri özəl daşınmaz əmlak əməliyyatına imza atıb. Bundan başqa, 2018-ci ildə 20 milyard dollarlıq sazişlə “Thomson Reuters”-in “Maliyyə və Risk” bölməsində tərəfdaşlıq yaradılaraq “Refinitiv” brendi formalaşdırılıb. Bu gün “Refinitiv” maliyyə məlumat bazarında ən çox istifadə olunan qlobal platformalardan biridir.

Qeyd edək ki, Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə “Blackstone” arasında əməkdaşlıq 2015-ci ildən başlayıb. Bu müddət ərzində ARDNF şirkətin idarə etdiyi daşınmaz əmlak və özəl səhm fondlarına 1 milyard dollardan artıq sərmayə yatırıb. Bu investisiyalar Şimali Amerika, Avropa və Asiya regionlarını əhatə edir.

Dünyanın iqtisadi nəhənglərinin rəhbərlərinin müraciəti ilə keçirilən görüşlərin arxasında bir sıra mühüm səbəblər dayanır. Azərbaycanın Cənubi Qafqazda sabitlik mərkəzi rolunu uğurla yerinə yetirməsi ilə yanaşı, ölkəmizin nəqliyyat arteriyaları üçün beynəlxalq hab funksiyası xüsusi əhəmiyyət daşıyır. Digər mühüm amil isə Azərbaycanın qlobal miqyasda etibarlı enerji təminatçısı statusuna sahib olmasıdır. Avropanın aparıcı enerji tərəfdaşlarından biri olan Azərbaycan müəllifi olduğu sabit mühit sayəsində həm də sərmayələrin cəlb olunmasını asanlaşdırır.

Prezident İlham Əliyevin vurğuladığı kimi, 2004–2024-cü illər ərzində ölkə iqtisadiyyatına 344,4 milyard ABŞ dolları həcmində investisiya yatırılmış, onun 213,2 milyard ABŞ dolları isə qeyri-neft sektorunun inkişafına yönəldilmişdir. Bu göstəricilər Azərbaycanın iqtisadi dayaqlarının gücünü və strateji mövqeyinin əhəmiyyətini bir daha təsdiqləyir. Yatırımların davamlı artması ölkəmizin inkişaf perspektivlərini daha da möhkəmləndirir. Beləliklə, Azərbaycan həm regional, həm də qlobal miqyasda etibarlı tərəfdaş və investisiya mərkəzi kimi öz mövqeyini möhkəmləndirir.

***Nurlan ABDALOV***
***XQ***

# Bakı–Tehran: 2 dəhliz, 1 hədəf razılaşması

(əvvəli 1-ci səhifədə)



Bu məqamda Baş nazirin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətinin sentyabrın 22-də Tehrana səfəri xüsusi əhəmiyyət daşıyırdı. Səfər proqramdakı İran Prezidenti Məsud Pezeşkianın qəbulundan tutmuş, Milli Təhlükəsizlik Şurasının katibi Əli Laricani və yol və şəhərsalma naziri, İran–Azərbaycan İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyanın həmsədri Fərzanə Sadiqlə müzakirəyədək bütün görüşlər qarşılıqlı etimad və strateji əməkdaşlıq atmosferində keçdi. Pezeşkian aydın şəkildə bəyan etdi ki, İslam dünyasının liderləri və yüksək səviyyəli rəsmilər arasındakı iradə və qətiyyət nəticəsində bədxahların səyləri heç bir nəticə verməyəcək. Bu ifadə, əslində, həm regiondakı təxribatçı mərkəzlərə mesaj, həm də Tehran–Bakı xəttində yeni mərhələnin siqnalı kimi dəyərləndirilə bilər. İran Prezidenti iki ölkə arasında dərin mədəni və dini ortaq dəyərlərə söykənən münasibətlərin siyasi, iqtisadi və mədəni sahələrdə genişləndirilməsi niyyətini vurğuladı. O, cari ildə Azərbaycana iki səfərinin müsbət nəticələrinə toxunaraq, mövcud imkanlardan maksimum istifadə edilməsinin hər iki dövlətin maraqlarına xidmət edəcəyini bildirdi. Burada diqqət çəkən məqam Pezeşkianın İran–Azərbaycan münasibətlərini ölkəsinin xarici siyasət prioritetlərindən biri kimi təqdim etməsi oldu. Bu, Tehranın Cənubi Qafqazda Bakı ilə əməkdaşlığı strateji baxımdan ön plana çəkdiyini göstərir. İran Prezidenti vəzifəsinin icrasına başladığı gündən, yəni ötən il iyulun 28-dən etibarən Bakı–Tehran əlaqələrinin yüksək səviyyədə olmasına çalışıb. Məsud Pezeşkian iki ölkə arasında münasibətlərin sərhəd qonşuluğundan daha yaxın hesab etdiyini dəfələrlə bildirib: "Bizim münasibətlərimiz yeni başlamış münasibətlər deyil. Biz qədim dövrlərdən üzü bəri həmişə bir yerdə olmuşuq. Tarixin lap qədim dövrlərindən birlikdə, yan-yana olmuşuq. Sərhəd qonşuluq deməkdir, evlərin qonşuluğu kimi. Qonşuların həyəti var, evi var. Lakin onların bir-birinin arasında gediş-gəliş olur. Bir-birinə dayaq durarlar, kömək edərlər, səsinə səs verərlər".

Aprel ayında ölkəmizə ilk rəsmi səfəri zamanı İran Prezidenti Məsud Pezeşkianın səsləndirdiyi bu fikirlər münasibətlərin bütün maneələrə baxmayaraq daim müsbət istiqamətə aparılmalı olduğunu deməyə əsas verir.

***

Son vaxtlar kənar qüvvələr tərəfindən ortaya atılan və mübahisə yarada biləcək mövzu Zəngəzur dəhlizi (TRIPP) məsələsi idi. Lakin İran Prezidenti Məsud Pezeşkian 8 avqust Vaşinqton Bəyannaməsindən sonra verdiyi açıqlamada qətiyyətlə bildirdi: "Zəngəzur dəhlizi (TRIPP) ətrafında anlaşılmazlıq və ya spekulyasiyaya ehtiyac yoxdur". Eyni zamanda, Pezeşkian İran mediasında məsələnin şişirdildiyini qeyd edərək dəhlizin İran üçün təhlükə yaratmadığını bildirib. Keçən ay Pezeşkianın Ermənistana rəsmi səfəri zamanı əsas müzakirə mövzularından biri məhz bu oldu. İrəvanda İran rəsmilərinə Vaşinqtonda keçirilən üçtərəfli görüşdə Prezident Pezeşkian və Xarici İşlər Naziri Abbas Əraqçı İranın narahatlıqlarının Ermənistan rəhbərliyi tərəfindən aradan qaldırıldığı barədə məlumatın, lazımi izahların verildiyini bildiriblər. Tehranın əsas narahatlığı sərhədlərin dəyişməzliyi, Ermənistanın suverenliyi və hüquqi-siyasi məsələlərlə bağlı idi. Vaşinqton görüşündə bütün məsələlər nəzərə alınıb və narahatlığa əsas qalmayıb. Bəli, ABŞ-ın TRIPP-də mümkün iştirakı hələ də Tehranın diqqət mərkəzindədir. Fəqət bu, Ermənistan və ABŞ ilə bağlı məsələyə aiddir, Azərbaycana yönəlmiş deyil.

Mövcud şəraitdə Zəngəzur dəhlizinin "əkizi", İranla daha bir "fayda körpüsü" hesab olunan Araz dəhlizinin əhəmiyyəti get-gedə artır. Tranzit marşrutların şaxələndirilməsi, kommunikasiya xətlərinin genişləndirilməsi və regional logistika şəbəkəsinin möhkəmləndirilməsi üçün bu dəhliz vacibdir. İranın yol və şəhərsalma naziri, İran–Azərbaycan İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyanın həmsədri Fərzanə Sadiqlə görüş zamanı Araz dəhlizi üzrə Ağbənd–Kələlə körpüsünün tikintisinin gələn ilin fevralında başa çatmasının, Kələlə–Culfa yolunun genişləndirilməsinin vəziyyəti ilə bağlı məlumat verilib. Araz dəhlizi üzrə İranda magistral yolun tikintisinin başa çatdırılması üçün təxminən 241 milyon dollar vəsait lazımdır. Dəhliz üzrə sərhədboyu magistral yolun uzunluğu 107 kilometrdir. Onun 58 kilometri Naxçıvanla paralel sərhəd, 47 kilometri isə Ermənistanla paralel sərhəddədir. Araz dəhlizi iki ölkə arasında ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün olduqca vacibdir. Azərbaycan Prezidenti İlham Əliyev "Əl-Ərəbiyə" kanalına verdiyi müsahibədə bu dəhlizin Şərq–Qərb marşrutunun tərkib hissəsi olmaqla yanaşı, Şimal–Cənub xəttinin də strateji elementi olduğunu vurğulayıb: "...Ermənistan Zəngəzur dəhlizinin açılmasına mane olanda biz İran Hökuməti ilə yenə də hökumətlərarası razılığa gəldik ki, İran ərazisində əlavə yol çəkiləcək və o, Araz çayının adı ilə – "Araz dəhlizi" adlanacaq. Azərbaycan Ermənistandan yan keçmək üçün Araz çayı üzərində körpünün tikintisinə xeyli vəsait yatırıb. Xəritəyə baxsanız, bunun çətin olmadığını görəcəksiniz... Bu, təkcə Azərbaycanla Azərbaycan arasında deyil, təkcə Şərqlə Qərb arasında deyil, həm də Şimalla Cənub arasında bağlantıdır". Ümumi mənzərə onu göstərir ki, Bakı və Tehran qarşılıqlı etimad əsasında yeni mərhələyə qədəm qoyur. Zəngəzur dəhlizi (TRIPP) və Araz dəhlizinin gələcəyi ilə bağlı Tehran–Bakı dialoqu regionun logistika arteriyalarını sinxronlaşdırmaq potensialına malikdir. Bu görüşlər həm də geosiyasi rəqabətin kəskinləşdiyi bir dövrdə Azərbaycan–İran münasibətlərini sabitləşdirici amil kimi ön plana çıxarır.

İndi əsas sual budur: Bakı və Tehran qarşıdakı aylar ərzində əldə olunmuş razılaşmaları praktik müstəviyə keçirə biləcəkmi və Zəngəzur–Araz dəhlizləri regional geosiyasətdə real inteqrasiyanın nümunəsinə çevriləcəkmi? Bu sualın cavabı Cənubi Qafqazın gələcək xəritəsini müəyyən edəcək.

***Tacir SADIQOV***
***XQ***

**Ekspert rəyi**



**Məsiağa MƏHƏMMƏDİ,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi**

Zəngəzur və Araz dəhlizlərinin açılması Cənubi Qafqazın logistika xəritəsini dəyişdirəcək və bu marşrutları Şimal–Cənub dəhlizinin strateji hissəsinə çevirəcək. Bu, həm İran ərazisindən Fars körfəzinə, həm də Azərbaycan və Ermənistan üzərindən Rusiyaya, Avropaya və digər istiqamətlərə çıxış imkanları yaradır. Şahin Mustafayevin son səfərində Araz çayı üzərində körpü və yol layihəsi müzakirələrin mərkəzində olub və hər iki ölkənin prioritet gündəliyinə daxil edilib. İran bölgədə digər güclər kimi öz təsirini artırmağa çalışır, amma hökumətin konstruktiv yanaşması göstərir ki, Bakı ilə münasibətlər əməkdaşlıq formatında davam etdirilə bilər. Azərbaycan tərəfi də bu xəttə sadiq qalaraq, Tehranla dialoqu ən yüksək səviyyədə dəstəkləyir.

İranda daxili siyasi mübarizənin dəhliz məsələlərinə təsiri qalmaqdadır. Pezeşkianın mövqeyində ciddi dəyişiklik ehtimalı az görünür, son kadr dəyişiklikləri diqqət çəkir. Xüsusilə, keçmiş spiker Əli Laricaninin İran Ali Rəhbərinin təhlükəsizlik məsələləri üzrə xüsusi vəzifəyə təyin edilməsi Tehranın siyasətinə əlavə sabitlik gətirir. Laricani ilk müsahibəsində Zəngəzur dəhlizi ilə bağlı suala cavabında dəhlizin İran üçün təhlükə yaratmadığını və Ermənistan tərəfindən zəmanət verildiyini açıqladı.

Bəzi radikal dairələrin Azərbaycana qarşı səsləndirdiyi iddialara da Laricani açıq mövqe sərgiləyib. O, İran–İsrail müharibəsi dövründə Azərbaycanın İsrailə yardım etməsi ilə bağlı yayılan fikirlərin sübuta yetirilmədiyini, indiyədək heç bir sənəd və faktın təqdim olunmadığını bildirib. Bu, məsələnin daha çox daxili siyasi auditoriyaya hesablanmış ritorika olduğunu göstərir.

# "Italiana Petroli" ilə enerji əməkdaşlığı



**Azərbaycan Dövlət Neft Şirkəti İtaliyanın aparıcı enerji şirkətlərindən olan "Italiana Petroli" (IP) şirkətinin 99,82 faizlik səhmlərinin "API Holding"dən alınması barədə saziş imzalayıb. Əməliyyat ənənəvi bağlanış şərtləri və müvafiq tənzimləyici təsdiqlərdən asılı olaraq 2026-cı ilin birinci rübündə başa çatdırılacaq. Sövdələşmə SOCAR-ın 2024-cü ilin 4-cü rübündən iştirak etdiyi rəqabətli "M&A" prosesinin nəticəsidir.**

Qeyd edək ki, "Italiana Petroli" İtaliyanın ən iri inteqrə olunmuş "downstream" platformalarından biridir. Şirkət ölkə üzrə minlərlə yanacaqdoldurma məntəqəsinə, ildə, təxminən, 10 milyon ton gücə malik iki neft emalı zavoduna, bitum, aviasiya yanacağı və sürtgü yağları kimi xüsusi məhsulların satışına və ölkəni tam əhatə edən logistika şəbəkəsinə də sahibdir.

SOCAR IP-nin möhkəm bazar mövqeyini qorumaq və gücləndirmək üçün yerli komanda ilə əməkdaşlığı davam etdirməyi, müştərilərinə və tərəfdaşlarına yüksək keyfiyyətli xidmətlərin davamlı çatdırılmasını təmin etməyi planlaşdırır. Şirkət həmçinin işçi qüvvəsini ixtisar etməyəcək və ətraf mühitə hörmət prinsiplərini İtaliyadakı fəaliyyətinin əsas istiqamətlərindən biri kimi saxlayacaq.

"API Holding" isə detallı seçim prosesindən sonra SOCAR-ın institusional profili və zəngin biznes təcrübəsini nəzərə alaraq IP-dəki bütün payını satmaq qərarına gəlib. Qrup hesab edir ki, etibarlı nüfuza malik beynəlxalq sənaye şirkətinə satış IP-yə idarəetmədə mükəmməllik axtarışını davam etdirməyə, korporativ istedadların dəyərləndirilməsinə, qlobal miqyasda mövqelərin gücləndirilməsinə və Aralıq dənizində strateji mərkəz kimi rolunun möhkəmlənməsinə imkan verəcək.

İmzalanma mərasimində çıxış edən SOCAR-ın prezidenti Rövşən Nəcəf bildirib ki, "Italiana Petroli"nin alınması Azərbaycan şirkətinin beynəlxalq səviyyədə diversifikasiyasında mühüm addımdır.

"Italiana Petroli"nin sədri Uqo Braketti Peretti isə söyləyib ki, IP yanacaq sektorunda İtaliya səviyyəsində istinad nöqtəsi olub və qalmaqda davam edir, həmçinin ölkədə mobillik və enerji təhlükəsizliyi əsas aktordur.

***XQ***

# Türk dövlətləri ilə media əlaqələri və ortaq layihələr müzakirə olunub

**Sentyabrın 23-də Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov ilə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova arasında görüş keçirilib.**

Agentlikdən bildirilib ki, Ə.İsmayılov türk dövlətləri ilə Azərbaycan arasında mövcud media əlaqələrinin hazırkı vəziyyətinə toxunub. O, medianın qarşılıqlı fəaliyyətinin gücləndirilməsinin əhəmiyyətini qeyd edərək fondla əməkdaşlığın gələcəkdə ortaq layihələrin icrasına zəmin yaradacağını və işbirliyinin səmərəliliyini artıracağını diqqətə çatdırıb.

Fondun məqsəd və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verən A.Raimkulova türk xalqlarının ortaq mədəni dəyərlərinin qorunması, öyrənilməsi və gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən layihələrdən danışıb. O, sözügedən irsin beynəlxalq müstəvidə tanıdılmasında medianın mühüm rol oynadığını qeyd edib.

Görüşdə tərəflər gələcəkdə qarşılıqlı fəaliyyət çərçivəsində müxtəlif proqramların reallaşması istiqamətində fikir mübadiləsi aparıblar.

***XQ***

# Azərbaycan–Aİ münasibətləri dəyər qazanmağa başlayıb




**Avropa İttifaqı (Aİ) Cənubi Qafqazda sülh, sabitlik və dayanıqlı inkişafın təmin olunması istiqamətində dəstəyini bir daha təsdiqləyib. Bu çərçivədə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, qarşılıqlı etimadın artırılması və praktiki əməkdaşlıq imkanlarının genişləndirilməsi əsas prioritetdir. Aİ-nin genişlənmə üzrə komissarı Marta Kosun bölgəyə səfəri və bununla bağlı verdiyi açıqlamalar maraq doğurur.**

Onun sözlərinə görə, ticarət marşrutlarının açılması, infrastrukturun qarşılıqlı inteqrasiyası və xalqlar arasında birbaşa təmasların təşviq olunması sayəsində mövcud geosiyasi imkanları davamlı sülhə və ortaq rifaha çevirmək mümkündür.

Bu kontekstdə səfər çərçivəsində əldə olunan əsas razılaşmalardan biri kimi Yüksək Səviyyəli İşçi Qrupunun yaradılmasını qeyd edən Kos yeni strukturun Aİ-nin "Global Gateway" təşəbbüsü çərçivəsində icra olunacaq birgə investisiya layihələrinin hazırlanması, əlaqələndirilməsi və həyata keçirilməsi prosesinə töhfə verəcəyini deyib. "Global Gateway" təşəbbüsü Aİ-nin dayanıqlı və təhlükəsiz infrastrukturun inkişafına yönəlmiş qlobal strategiyasıdır. Bu proqram çərçivəsində Aİ müxtəlif ölkələrlə, o cümlədən Azərbaycanla daha dərin iqtisadi tərəfdaşlıq qurmağa çalışır.

Hazırda Azərbaycan "Global Gateway" və "Team Europe" təşəbbüsləri çərçivəsində yaşıl enerji, rəqəmsal texnologiyalar və dayanıqlı inkişaf sahələrində konkret layihələr həyata keçirir. Bu layihələr ölkənin enerji təhlükəsizliyini artırmaqla yanaşı, karbon emissiyalarının azaldılmasına, alternativ enerji mənbələrinin inkişafına və rəqəmsal xidmətlərin genişləndirilməsinə yönəlib. Eyni zamanda, bu təşəbbüslər çərçivəsində həyata keçirilən proqramlar sosial rifahın artırılmasına və rifahın yüksəldilməsinə əhəmiyyətli töhfə verir.

Əməkdaşlığın digər vacib istiqamətlərindən biri humanitar sahədə, xüsusilə mina təhlükəsinin aradan qaldırılması ilə bağlı həyata keçirilən fəaliyyətdir. Aİ və ona üzv dövlətlər bu məqsədlə indiyədək Azərbaycana 23 milyon avro məbləğində maliyyə yardımı ayırıblar. Bu vəsait işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsinə və həmin ərazilərin təhlükəsizliyinin təmin olunmasına yönəldilib. Bu dəstək, eyni zamanda, keçmiş münaqişə zonalarının yenidən məskunlaşma və iqtisadi dövriyyəyə qaytarılması baxımından böyük əhəmiyyət daşıyır.

Kənd təsərrüfatı sahələrinin istismara verilməsi, infrastruktur layihələrinin icrası, məktəb və xəstəxanaların tikintisi, eləcə də əhalinin doğma yurdlarına qayıdışı yalnız mina təmizlənməsi tamamlandıqdan sonra reallaşır. Deməli, bu dəstək, eyni zamanda, sosial və iqtisadi inkişaf baxımından da strateji əhəmiyyət daşıyır.

***

Marta Kosun bölgəyə səfəri və burada keçirdiyi görüşlər Aİ ilə Azərbaycan arasında münasibətlərin dinamik inkişafını bir daha təsdiqlədi. Komissarın bəyanatları Aİ-nin regionla əməkdaşlığı real layihələrlə dəstəkləməkdə qərarlı olduğunu və uzunmüddətli sülhün təminində maraqlı tərəf kimi çıxış etdiyini göstərdi. Aydın oldu ki, bu münasibətlər qarşılıqlı etimada əsaslanan və konkret nəticələrə yönəlik əməkdaşlıq modelidir. Bunun nəticəsidir ki, bu gün Aİ Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Statistik nəticələr də bunu təsdiq edir. 2025-ci ilin yanvar–iyul aylarında ölkəmizin Aİ ilə ticarət dövriyyəsi 12 milyard 404,2 milyon ABŞ dolları təşkil edib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 14 faiz artım deməkdir. Ümumi ixracda Aİ ölkələrinin payı 70,4 faiz, idxalda isə 12,4 faiz təşkil edib. Ən çox ticarət dövriyyəsi İtaliya, Almaniya, Çexiya, Yunanıstan və İspaniya ilə qeydə alınıb.

Ümumiyyətlə, Azərbaycan və Aİ arasında formalaşmış əməkdaşlıq modeli qarşılıqlı faydaya əsaslanan, strateji məqsədləri ehtiva edən və uzunmüddətli tərəfdaşlığa yönələn formata çevrilib. Bu əməkdaşlıq yalnız iqtisadi deyil, həm də humanitar, sosial və siyasi sahələri əhatə edir. Post-münaqişə dövründə reabilitasiya, sülh quruculuğu və sabitliyin təmin olunması baxımından Aİ-nin dəstəyi mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, Aİ-nin islahatlara verdiyi dəstək və yerli icmalarla əməkdaşlığa önəm verməsi bu tərəfdaşlığın insan mərkəzli və dəyərlərə əsaslanan xarakterini göstərir.

Göründüyü kimi, Azərbaycan–Aİ münasibətləri yeni mərhələyə qədəm qoyur. Qarşılıqlı siyasi iradə və praqmatik yanaşmalar bu əməkdaşlığın dərinləşməsinə, regionda sabitliyə və Azərbaycanın milli maraqlarının təmin olunmasına xidmət edir. Bu mərhələ həm ikitərəfli əlaqələrin inkişafı, həm də regional inteqrasiyanın təşviqi baxımından geniş perspektiv vəd edir. Mövzu ilə bağlı **politoloq Tural İsmayılov** XQ-yə bildirdi ki, Azərbaycan–Avropa İttifaqı münasibətləri artıq



yeni strateji mərhələyə qədəm qoyub və bu, ölkəmizin artan geosiyasi çəkisinin göstəricisidir: "Azərbaycanın Avropa üçün əsas tərəfdaş statusu təsadüfi deyil, həm enerji, həm də nəqliyyat sahələrində konkret reallıqlara əsaslanır. Bakı artıq təkcə xammal ixrac edən ölkə deyil, həm də qlobal tranzit və enerji qovşağı rolunu möhkəmləndirib. Bu mövqeyin formalaşmasında Prezident İlham Əliyevin uzaqgörən siyasəti həlledici rol oynayır.

Aİ rəsmilərinin, xüsusilə Marta Kosun səfəri, Azərbaycanın regiondakı əvəzsiz rolunu bir daha ortaya qoydu. Ölkəmiz yalnız enerji təhlükəsizliyinə deyil, həm də Avropanın yaşıl enerji keçidinə mühüm dəstək verir. "Global Gateway" və "Team Europe" təşəbbüsləri çərçivəsində həyata keçirilən layihələr Azərbaycanın iqtisadi modernləşməsinə ciddi töhfə verir. Burada diqqətçəkən məqam odur ki, Aİ Azərbaycanın islahatlarını texniki və maliyyə resursları ilə dəstəkləyir".

Politoloq sonda dedi ki, Azərbaycan–Aİ münasibətlərində iqtisadi əməkdaşlığın dərinləşməsi paralel olaraq siyasi dialoqu da gücləndirir: "Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mina təhlükəsinin aradan qaldırılması istiqamətində Aİ-nin dəstəyi humanitar müstəvidə əməkdaşlığın bariz nümunəsidir. Bu, Azərbaycanın regionda sülh və sabitlik üçün atdığı addımların Avropa tərəfindən açıq şəkildə dəyərləndirildiyini göstərir. Azərbaycanın əsas ticarət tərəfdaşı olan Aİ ilə iqtisadi dövriyyənin rekord göstəricilərə çatması münasibətlərin dayanıqlılığını sübut edir. 2025-ci ilin statistik rəqəmləri Azərbaycanın Avropa bazarlarına daha sıx inteqrasiya etdiyini nümayiş etdirir. Enerjidən nəqliyyata, rəqəmsallaşmadan innovasiyalara qədər geniş spektrdə əməkdaşlıq qarşılıqlı maraqlar üzərində qurulub. Azərbaycan bu gün Avropaya təkcə enerji təmin etmir, həm də təhlükəsizlik, sabitlik və inkişaf üçün strateji zəmanət yaradır. Avropa üçün etibarlı tərəfdaş statusu qazanan ölkəmiz, regionun gələcək inkişafında açar mövqeyə malikdir. Sülh prosesində və iqtisadi inteqrasiyada Azərbaycanın irəli sürdüyü təşəbbüslər Aİ tərəfindən dəstəklənir".

Beləliklə, Azərbaycan–Aİ münasibətləri qarşılıqlı etimada əsaslanan və uzunmüddətli perspektivə yönəlmiş tərəfdaşlıq modelinə çevrilib. Bu əməkdaşlıq həm ölkəmizin milli maraqlarına cavab verir, həm də regionda dayanıqlı sabitliyə xidmət edir. Azərbaycanın Avropa üçün strateji dəyəri artıq faktdır və gələcəkdə bu əməkdaşlığın daha da dərinləşəcəyi şübhəsizdir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# “Dördüncü Respublika” Ermənistana nə vəd edir?

## *Paşinyan isə regional inteqrasiyanı və qonşularla əməkdaşlığı üstün sayır*

**Yenidən “Vətəndaş müqaviləsi” Partiyasının sədri seçilən Ermənistan baş naziri Nikol Paşinyan “Dördüncü Respublika”nın yaradılmasına hazırlıq barədə mesaj verib. Onun bu çıxışı Ermənistanın siyasi tarixində yeni bir mərhələnin anonsu kimi qəbul edilib. Paşinyan bununla mövcud dövlətçilik modelinin ideoloji əsaslarını dəyişməyi hədəfləyir. Onun təqdim etdiyi konsepsiyanın mərkəzində “real Ermənistan” anlayışı dayanır.**



Bu model uzun illərdən bəri erməni siyasi dairələrinin təməl ideologiyası olan “tarixi Ermənistan” xəyalına qarşı çıxır. Yəni yeni respublikanın məqsədi ekspansionist arzular və qonşularla qarşıdurma üzərində qurulmayacaq. Əksinə, Paşinyan bildirir ki, “Dördüncü Respublika” qonşu dövlətlərlə, ilk növbədə, Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılmasına çalışacaq və strateji hədəf kimi Avropa İttifaqına inteqrasiyanı seçəcək. Bu məqsədlə baş nazir parlament seçkilərində qalib gələcəyi təqdirdə konstitusiya islahatları ilə bağlı referendum keçirəcəyini də elan edib. Paşinyan çıxışında Moskva ilə münasibətlərin gələcək perspektivi barədə də danışıb və vurğulayıb ki, Ermənistan–Rusiya münasibətləri hazırda transformasiya mərhələsindədir. Onun fikrincə, prosesin nəticəsi əvvəlkindən daha güclü tərəfdaşlıq olacaq. Lakin son illər Moskva ilə münasibətlərdəki soyuqluq, kollektiv təhlükəsizlik mexanizmlərindəki anlaşılmazlıqlar və Ermənistanın Qərbə meyillənməsi bu arqumenti zəiflədən amillərdir. Paşinyanın Aİ-yə inteqrasiya istiqamətində səsləndirdiyi vədlər Moskvanın strateji maraqları ilə üst-üstə düşmədiyindən gələcəkdə siyasi böhran ehtimalını artırır.

“Dördüncü Respublika” ideyası daxildə kəskin mübahisələr doğurub. Keçmiş prezidentlər Robert Köçəryan və Serj Sarkisyan Paşinyanın bu ideyasını Ermənistanın müstəqilliyini sarsıdan kursun başlanğıcı hesab edirlər. Köçəryan, hətta “müstəqilliyimizin gələcəyi hər birimizin əzmindən və Vətənə sədaqətimizdən asılıdır” deyə xəbərdarlıq edib. Görünür, müxalifət Paşinyanın Avropa yönümlü kursunu dövlətin suverenliyinə birbaşa təhlükə sayır. Eks-prezident hakimiyyətdəki qüvvələri “kapitulyatorlar” adlandıraraq bildirib ki, artıq onlara “yox” deməyin vaxtıdır. Köçəryanın fikrincə, Paşinyanın səsləndirdiyi ideyalar tarixi yaddaşı silmək, keçmişi təhrif, qələbələri inkar etmək cəhdidir. “Dördüncü Respublika” ideyasını tənqid edənlərdən biri də “parlaq Ermənistan” Partiyasının sədri, keçmiş diplomat Edmon Marukyandır. O, məsələ ilə bağlı sosial şəbəkə hesabında yazıb: “TRIPP dəhlizini verdik. İndi də Azərbaycanın növbəti tələbini yerinə yetirməliyik: Ermənistan dövlətinin hüquqi təməlini, yəni Müstəqillik Bəyannaməsini məhv etmək. Bu alçaldıcı addımı necə qələbə kimi təqdim etmək olar? Belə bir referendumun keçirilməsi dövlətin məhv edilməsi prosesidir. Nikol Paşinyan baş nazir seçilməməlidir!”. Daşnaksütyun partiyasının nümayəndəsi İşxan Saqatelyan da hökumətə qarşı sərt bəyanatla çıxış edərək baş nazir Nikol Paşinyanı “Dördüncü Respublika” modelini reallaşdırmağa cəhd göstərməkdə günahlandırıb və bunu “Türkiyə–Azərbaycan proqramının son mərhələsi” adlandırıb.

Suyu bulandırmağa çalışanlar olduğu kimi, daxildə Paşinyanın çıxışına müsbət yanaşanlar da var. Qafqaz İnstitutunun rəhbəri Aleksandr İskəndəryan Paşinyan və komandasının hakimiyyətə gəlməzdən əvvəlki dövrü, bütövlükdə, uğursuzluq kimi qələmə verir, ölkənin yalnız onların rəhbərliyi ilə inkişaf edəcəyini bildirir. Ekspert hesab edir ki, “Dördüncü Respublika” ideyası Ermənistan siyasətində ilk dəfə səslənmir. Onun qənaətinə görə, 2026-cı il iyunun 7-nə təyin olunmuş parlament seçkiləri Paşinyanın vəd etdiyi referendumun “müqəddiməsi” kimi qəbul edilməyəcək. Amma buna baxmayaraq, Əsas Qanuna dəyişiklik ehtimalı böyükdür. İskəndəryan vurğulayır ki, mövcud Konstitusiyanın preambulası Ermənistanın müstəqillik bəyannaməsinə istinad edir və orada digər ölkələrə ərazi iddiası yer alır. Bu maddənin gələcəkdə dəyişilməsi mümkündür.

Əslində, məsələyə dərindən yanaşsaq görərik ki, Paşinyan, sadəcə, günün reallıqları ilə hərəkət etməyə çalışır. Çıxışa başlamazdan əvvəl onun Emənistanın əvvəlki, yəni saxta tarixini xatırlatması da bundan qaynaqlanır. Baş nazir qeyd edir ki, 1991-ci il sentyabrın 21-də referendum sualı verildi: “Ermənistan Respublikası SSRİ-dən kənarda müstəqil, demokratik dövlət olmalıdırmı?” və xalqın 94 faizi “bəli” cavabını verdi. Beləliklə, Ermənistanın “Üçüncü Respublika”sı yaradıldı. Şübhəsiz ki, həmin soydaşlarımız azad, sülhsevər, firavan və xoşbəxt bir dövlət qurmaq istəyirdilər. Təəssüf ki, “Üçüncü Respublika”nın aqibəti elə olmadı: blokada, müharibə, iqtisadi tənəzzül və miqrasiya müstəqillik referendumunun arzusunu reallığa çevirməyə imkan vermədi”.

Baş nazirin bunun ardınca avqustun 8-də əldə olunan sülh sazişini xatırlatması onun Ermənistandakı “xəstə ideologiya”-nın aradan qaldırılması istiqamətində atacağı addımlardan xəbər verir.

Sonda onu da qeyd edək ki, Ermənistanın reallığı dərk etməsi, Azərbaycan və Türkiyə ilə münasibətlərin inkişafının zəruriliyini anlaması ölkənin gələcəyi üçün strateji əhəmiyyət daşıyır. Görünür, Paşinyan artıq başa düşüb ki, “halva-halva deməklə ağız şirin olmur”. Ona görə də real addımlar atmağa çalışaraq ölkəsinin gələcəyini xilas etmək istəyir. Yalnız münasibətlər normallaşdığı təqdirdə, sülh və sabitlik tam təmin olunacaq. Bu isə ölkənin regional inteqrasiyasını sürətləndirəcək, qonşular və beynəlxalq təşkilatlarla əlaqələrin genişlənməsinə şərait yaradacaq.

***Nəzrin ELDARQIZI***
***XQ***

### Ekspert rəyi



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

Paşinyan artıq uzun müddətdir ki, “real Ermənistan” ideyasını, yəni başqalarının ərazilərinə göz dikilmədiyi, qonşu dövlətlərə ərazi iddialarının olmadığı ideyasını təbliğ edir. Çünki Ermənistanın ayrı-ayrı ölkələrdən asılı vəziyyətdə qalaraq onların maraqlarından çıxış etməsinin, həmçinin regional və qlobal layihələrdən kənarda qalmasının əsas səbəbi yanlış ideoloji xətt olub. Paşinyan və onun komandası bunu başa düşdüyü üçün fəal şəkildə çıxış yolu axtarır. Paşinyanın “Dördüncü Respublika” ideyası özündə Avropaya inteqrasiya ilə yanaşı, həm də Azərbaycan və Türkiyə ilə münasibətlərin bərpa olunmasını ehtiva edir. Məhz Azərbaycanla sülh və Türkiyə ilə münasibətlərin normallaşması Ermənistanın Rusiyanın təsir dairəsindən çıxmasına və yeni iqtisadi münasibətlər quraraq müstəqil, asılı olmayan iqtisadiyyat qurmasına imkan verəcək. Paşinyan bunun alternativi olmadığını kifayət qədər yaxşı anlayır. Bu gün Ermənistanın müstəqil xarici siyasət kurs yürütmək üçün mütləq şəkildə güclü iqtisadi bünövrəyə ehtiyacı var. Bu imkanları təmin edəcək və Rusiyanın iqtisadi təsir imkanlarını zəiflədəcək güc isə Azərbaycan və Türkiyədir. Nəqliyyat dəhlizlərinin blokadadan çıxarılması və sərhədlərin açılması Ermənistan üçün hava, su kimi lazımdır.

Şübhəsiz, prosesin irəli aparılmasını istəməyən ayrı-ayrı güclər maksimum şəkildə Ermənistanın onlardan asılılığını davam etdirə bilmək üçün müvafiq addımlar atmaqda maraqlıdırlar. Xüsusilə də Rusiya Ermənistan daxilində olan siyasi müxalifət və kilsə rəhbərliyindən ibarət “beşinci kolon” vasitəsilə bu istiqamətdə Paşinyan hakimiyyətinə təzyiq göstərir. Hər şey Paşinyanın xalqın etimadını qazanmasından asılı olacaq. Əgər Paşinyan və onun komandası çoxluğun onların mövqelərini müdafiə etməsini və qarşıdakı seçkilərdə qələbəni təmin edə biləcəklərsə, o zaman kənar təsirlər də neytrallaşdırıla bilər. Gələcək perspektivdə Ermənistan hakimiyyətinin qarşıya qoyulan hədəflərin reallaşmasına nail ola biləcəyini düşünürəm. Çünki bu, ölkənin gələcəyi üçün yeganə çıxış yoludur.

# İrəvanda siyasi “hərarət” yüksəlir

## *Hakim komanda ilə müxalifətin söz savaşı səngimir*

**Ermənistanda parlament seçkiləri yaxınlaşdıqca iqtidar və “birləşmiş müxalifət” arasındakı siyasi qarşıdurma daha da kəskin xarakter alır. Tərəflər arasında qarşılıqlı ittihamlar və sərt bəyanatlar artıq adi hala çevrilib. Bu isə onu göstərir ki, seçkilərə doğru gedən müddətdə Paşinyan hökuməti ilə müxalifət qüvvələri arasında söz davası daha da sərtləşəcək.**



Müxalifət blokları hökuməti həm daxili idarəetmədə uğursuzluqda, həm də xarici siyasətdə milli maraqlara zidd addımlar



atmaqda ittiham edirlər. Onlar iddia edirlər ki, Paşinyan komandası ölkəni siyasi və iqtisadi böhrandan çıxara bilmir, əksinə, dövlətçiliyi zəiflədir. Öz növbəsində, hakimiyyət nümayəndələri müxalifəti revanşist mövqelərdə dayanmaqda, cəmiyyətdə nifaq yaratmaqda və Ermənistanı keçmişin köhnəlmiş siyasi üsullarına qaytarmaq istəməkdə günahlandırır. Parlament seçkilərində qələbə qazanmasına az ümid bəslənilən müxalif qüvvələr iqtidarı devirmək üçün digər yollara əl atmağı düşünür. Bunun isə mümkün ola biləcəyini yalnız zaman göstərəcək.

Müxalifətin əsas fiqurlarından biri hesab edilən sabiq prezident Serj Sarkisyan bu yaxınlarda belə bir açıqlama verib ki, Ermənistanda hakimiyyət dəyişikliyi məsələsi həmişə gündəm olub və bu gün də var. Onun sözlərinə görə, buna nail olmağın ən düzgün və optimal yolu hökumətə və baş nazirə etimadsızlıq bildirməkdir, yəni impiçmentdir. “Parlament təkcə danışmaq yox, həm də dinləmək yeridir. Qulağı olan dinləyəcək”, - o qeyd edib. Sarkisyan Paşinyanı aradan götürməyin digər yollarına da toxunaraq Nepalda kütləvi nümayişlər zamanı etirazçılar tərəfindən hökumət üzvlərinin öldürülməsinə diqqət çəkib. Sarkisyan çıxışında Paşinyanı aradan götürməyin iki yolunu qeyd edib: Nepal nümunəsi – zorakılıq və qətllər, Fransa nümunəsi – parlament vasitəsilə impiçment. “İndi biz xalqımıza nə təklif edə bilərik?”, – deyə sual edib.

Bu kontekstdə Sarkisyanın açıq şəkildə Nepal hadisələrinə istinadı, cəmiyyətdə gərginliyi artıran və radikallaşmanı təşviq edən təhlükəli ritorika kimi qiymətləndirilə bilər. Açıqlamadan da göründüyü kimi, müxalifət hər vasitə ilə hakimiyyəti dəyişməkdə qərarlıdır. Hətta bunun üçün “Nepal yolunu” belə misal göstərir. Beləliklə, onun məqsədi həm Paşinyan üzərində psixoloji təzyiq yaratmaq, həm də müxalifət tərəfdarlarını küçə etirazlarına hazırlamaqdır. Qeyd edək ki, keçmiş establişmentin bu cür çağırışlarına qarşı Nikol Paşinyan və onun komandası da səssiz qalmır. Baş nazirin aparat rəhbəri Araik Arutyunyan Serj Sarkisyanın fikirlərinə cavab olaraq mediaya müsahibəsində deyib: “Serj Sarkisyan Ermənistanda hakimiyyət dəyişikliyi üçün iki yol göstərirdi: impiçment və Nepal nümunəsi. Halbuki, o, əslində minnətdar olmalıydı ki, 2018-ci il inqilabı zamanı və ondan sonrakı dövrdə baş nazir Paşinyan və inqilab iştirakçıları bir an belə dinc və qeyri-zorakı prinsiplərdən kənara çıxmadılar. Amma təəccüblü deyil, çünki həm Serj Sarkisyan, həm də onun “mənəvi müəllimləri” – Robert Köçəryan və Levon Ter-Petrosyan illərlə sübut ediblər ki, onların əsas silahı zorakılıq olub”.

O bildirib ki, 1996-cı ildə seçkiləri saxtalaşdırıb qoşunları küçələrə çıxardılar, 1999-cu il 27 oktyabrda parlamentdə qətliam oldu, 2003–2015-ci illərdə isə zorakılıqlar davam etdi. Onun sözlərinə görə, sifarişli qətllər həm Ermənistanda, həm də xaricdə həyata keçirildi. “Bir sözlə, daimi “Nepal” rejimi qurmuşdular. 2018-ci ildə xalq bu rejimdən azad oldu, amma həmin qüvvələr o dövr üçün darıxırlar. Əvvəllər bir stəkan konyak və kabab arxasında adamların taleyinə qərar verirdilər; hətta “Salam, Rob” demək ölüm hökmü ilə nəticələnə bilərdi. Yaxşı ki, indi başa düşüblər – seçkilərlə onların heç bir şansı yoxdur”, - deyə erməni rəsmisi qeyd edib.

Araik Arutyunyanın bu çıxışı müxalifətin ritorikasına cavab olmaqla yanaşı, həm də Ermənistanın siyasi tarixinə qısa ekskursdur. “Nepal rejimi” ifadəsi keçmiş hakimiyyətin uzun illər cinayət, zorakılıq, saxtalaşdırılmış seçkilərlə hakimiyyətini qoruduğunu göstərir. Bundan əlavə, Araikin sözləri həm də seçki öncəsi siyasi mesaj xarakteri daşıyır. İctimaiyyətə göstərilir ki, keçmiş establişmentin vasitələri məhduddur, onların siyasətdə təsiri əhəmiyyətli dərəcədə zəifləyib. Ekspertlər hesab edirlər ki, Nepal hadisələrinin Ermənistanda təkrarlanması ehtimalı aşağıdır. Ölkə həm beynəlxalq, həm də daxili şərait baxımından belə zorakılıq ssenarisini həyata keçirə biləcək imkanlardan məhrumdur. Ermənistanda küçə etirazları artsa da, onların dövlət çevrilişi səviyyəsinə yüksəlməsi çətin görünür. Sarkisyanın açıqlamaları isə daha çox öz siyasi mövqeyini gündəmdə saxlamaq məqsədini güdür.

***Musa BAĞIRLI***
***XQ***

### Ekspert rəyi



**Yeganə HACIYEVA,**
**politoloq**

Serj Sarkisyanın “Nepal nümunəsi – zorakılıq və qətllər, Fransa nümunəsi – parlament vasitəsilə impiçment” sözləri Ermənistan siyasi mühitində ciddi rezonans doğurur. Bu ritorika cəmiyyətə hakimiyyət dəyişikliyinin yalnız kəskin və zorakı yollarla mümkünlüyü barədə mesaj ötürür ki, bu da ictimai rəyin radikallaşmasına və siyasi proseslərə inamsızlığın artmasına səbəb ola bilər. Baş nazirin aparatının cavabı isə keçmiş prezidentləri ittiham edərək, onların dövrünü “Nepal rejimi” adlandırır və 2018-ci ildə xalqın bu rejimdən qurtulduğunu vurğulayır. Belə qarşılıqlı ittihamlar, əslində, hakimiyyətlə müxalifət arasında dialoq imkanlarını daraldır, siyasi qütbləşməni dərinləşdirir. Hakimiyyətin keçmişi ittiham etməsi ilə müxalifətin radikal çıxışları bir-birini qidalandırır və kompromis ehtimalını azaldır. Bu isə ictimai rəyin daha çox emosional, qütbləşmiş yanaşmalar əsasında formalaşmasına gətirib çıxarır. Nəticədə, ölkədə sabit siyasi müzakirə mühitinin yaradılması çətinləşir, müxalifət-hakimiyyət münasibətləri isə daha çox qarşıdurma üzərində qurulur.




# Türk Dövlətləri Təşkilatı: yeni çağırışlar

**I məqalə**

## Qlobal geosiyasi dinamika

Geosiyasi xüsusiyyətlərinə görə XXI yüzil öncəki əsrlərin heç birinə bənzəmir. Buna görə də obrazlı deyə bilərik ki, "XXI əsrin geosiyasi yaddaşı qısadır". Əvvəlki əsrlərdə toplanmış təcrübə indi qismən faydalı ola bilir. Həll edilməyən problemlər artdıqca siyasi liderlər və analitiklər xaotik dünyadan, idarəedilən xaosdan, dünyanın geosiyasi parçalanmasından bəhs edirlər.

Praktiki olaraq bu cür nəzəri təsbitlərdən o tərəfə keçid etmək hələlik mümkün olmayıb. Əvəzində bir çox variantlarda qlobal inkişafa təkan verən təşkilatlanma platformaları meydana gəlir. Onları əhatə dairəsi və üzv dövlətlərin siyasi-coğrafi, etnik-mədəni, iqtisadi xüsusiyyətlərinə görə regional və beynəlxalq təşkilatlar kateqoriyalarına bölürlər.

Bundan başqa, müasir geosiyasətdə "region" anlayışının fərqli izahları mövcuddur. "Region" anlayışı fonunda "regionçuluq", "regionalizm", "regionlaşma" və s. kimi anlamlar meydana gəlmişdir ki, neqativ və pozitiv mənalarda işlədilə bilirlər.

Bütün bunlardan başqa, müasir dünyanın qloballaşma kontekstində fərqli ierarxik (pilləvari) geosiyasi bölgüləri vardır. Məsələn, "Qlobal Şimal/Qlobal Cənub", "İnkişaf etmiş/inkişaf edən/inkişaf etməmiş dünyalar", "Mərkəz/Əyalət" və digər təsniflərə rast gəlinir. Bunların fonunda bir zamanlar dünyaya hökm oxuyan imperiyaların parçalanmasından sonrakı dövlətçilik prosesini xarakterizə etməyə istiqamətlənmiş "bölünmüş dövlətlər" və "bir-biri ilə eyni qütbləşməyə can atan bölünmüş dövlətlər" kimi geosiyasi fərqləndirmələr mövcuddur.

Bu kimi yeni məqamların prizmasında müasir dünyanın geosiyasi mənzərəsi necə görünür?

## Geosiyasi mənzərə

Maraqlıdır, bir tərəfdən qloballaşmadan bəhs edirik, digər tərəfdən dünyanı çox müxtəlif təsnifli geosiyasi fraqmentlərə bölürük. XX əsrin geostrateqlərinin patriarxı sayılan Henri Kissincer yazırdı ki, dünya nizamı heç zaman olmamışdır və indi də onun nə olduğu aydın deyildir. Bu o deməkdir ki, dünya tarixində onu real birləşdirə biləcək kriteriyalar hazırlanmamışdır (və ya hazırlamaq mümkün olmamışdır). İmperiya dövlətləri belə buna cəhdlər etmişlər. Məsələn, XVII əsrdə Vestfal Sazişi Roma İmperiyası ilə Roma Papasının xristian dünyasını birləşdirməkdə fərqli kriteriyalara söykənmələri üzündən meydana gələn müharibələrə son qoymaq cəhdi idi. Ancaq çox düşündürücüdür ki, məhz Avropada XVII əsrin ikinci yarısından XVIII əsrin sonlarına qədər avropalılar 50-yə yaxın knyazı tonqalda yandırmışlar. Yəni kağız üzərində Vestfal Avropa dövlətlərinin münasibətlərini sivil prinsiplər üzərində qurmuşdu, lakin praktiki həyatda düşmənçilik, savaşlar və qanlı edamlar davam edirdi.

Qlobal miqyasda isə XVII əsrin ortalarından Səfəvi, Rusiya, Osmanlı və Qərb imperialist dairələri arasında amansız hərbi toqquşmalar olmuşdur. XX əsrin ikinci onilliyində imperiyaların "dünyanı birləşdirmək" cəhdləri I Dünya müharibəsinə gətirib çıxardı. Ondan cəmi 20 il sonra imperiya xislətli dövlətlər yenidən "dünyanı bir araya gətirməyə" böyük müharibə yolu ilə baş vurdular. Sonrası məlumdur.

Belə alınır ki, bir tərəfdən, H.Kissincer haqlıdır, digər tərəfdən dünyanın hələlik davamlı, sülhyönümlü və bərabər inkişafa geniş imkanlar açan qloballaşma təcrübəsi yoxdur. Lakin bu o demək deyil ki, bəşəriyyət cəhdlər etməməlidir.

Burada da fərqləndirmə aparmaq lazımdır. Dünya təcrübəsi göstərir ki, dünya dövlətlərini sivil və birləşdirici münasibətlər qurmağa yönəltməli olan beynəlxalq təşkilatlar və müxtəlif inteqrativ təşkilatlanmalar səmərə vermir. Bu barədə siyasi liderlər, o cümlədən Azərbaycan Prezidenti İlham Əliyev açıq danışmışdır. Məsələn, BMT öz funksiyasını lazımi səviyyədə yerinə yetirə bilmir. Böyük dövlətlərin dominant olduqları bir neçə regional və beynəlxalq təşkilatlar əməkdaşlıq yerinə yeni rəqabət meydanına çevrilirlər. Məsələn, ABŞ BRİKS-ə qarşı aqressivliyini gizlətmir. ŞƏT-də Hindistan öz xəbis geosiyasi maraqlarını üstün tutaraq, birləşdirici deyil, ayırıcı, bölücü mövqe nümayiş etdirir.

Bütün bunların müxtəlif dairələrin amansız informasiya savaşları ilə müşayiət olunduğu sirr deyil. Hətta informasiya müharibəsinin yeni-yeni növlərini icad edirlər. Yeni növlər, məsələn, hipermüharibə daha güzəştsiz, insan həyatının ən incə tərəflərinə belə zərər verən imkanlara malikdirlər. Faktiki olaraq insan mövcudluğunun fərd kimi heç bir "müqəddəs", "toxunulmaz" aspekti qalmamışdır. Bu prosesin dayanmasını yox, heç səngiməsini belə elmi proqnozlaşdırmırlar.

Beləliklə, bəşəriyyətin fraqmentləşmədən real inteqrasiyaya keçidinə ehtiyacı əvvəlki əsrlərdən daha çox var. Bəs bu prosesin həyata keçməsi yollarını necə müəyyən etmək olar? Ayrıca, həmin proses çərçivəsində eyni tarix, dil, din, mədəniyyətə sahib və etnik baxımdan eyni kökə malik xalqların qurduqları dövlətlər münasibətlərini necə qura bilərlər?

## Türk dövlətlərinin özəllikləri

Türk xalqları son 300 ildə çox dramatik yol keçmişlər. Avrasiyanın əsas dövlətqurucu etnoslarından olan türklərə qarşı müxtəlif imperiyalar tərəfindən dövlətçiliyi məhvedici təsirlər olmuşdur. Nəticədə XX əsrin başlanğıcına Osmanlıdan başqa müstəqil türk dövləti qalmamışdı. XX əsrdə də türk dövlətçiliyi bir neçə faciəvi mərhələni keçmişlər. Artıq XX əsrin 90-cı illərinə dünyada belə bir təsəvvür yaradılmışdı ki, türklər dövlət qura bilməzlər, mədəniyyət cəhətdən çox geridə qalmışlar və hətta "vahid türk etnosu" deyilən termin qondarmadır. İş o yerə çatmışdı ki, Anadoluda yaşayan Azərbaycan türkünə "turok", Azərbaycanda yaşayan və həmin insanların doğma qardaşları olan azərbaycanlılara "tyurok" deyirdilər. Qarsda yaşayan azərbaycanlı "turok" idi, onun Azərbaycanda yaşayan əmioğulusu "tyurok"du.

Bu qondarma fərqləndirməni sovetlər dövründə daha da dərinləşdirmişdilər. Belə ki, Qərbi Azərbaycanda (indi ora "Ermənistan" deyirlər) yaşayan türkə "ermənistanlı" (sonralar təhqiramiz "yeraz" terminini işlətməyə başladılar), Borçalıda yaşayan türkə "gürcüstanlı" (sonra təhqiramiz "qraz" terminini işlətməyə başladılar), Bakıda yaşayana, hətta Azərbaycanın öz rayonlarından fərqlənən mənada "bakinets" deməyə başladılar. Təbii ki, bu cür fərqləndirilən insanlara da öz növbəsində başqa əyalətlərdən olan qardaşlarına öz ayamalarını qoyurdular.

Bu bölücülük bütövlükdə türk dünyasında daha ciddi parçalanmalara yol açırdı. Sovet dönəmində Mərkəzi Asiya türklərinin necə təhqiramiz adlandırıldıqlarını unutmamışıq. Türkiyənin isə ancaq mənfi obrazı yaradılırdı. Daha doğrusu, erməni daşnak Türkiyəni necə görmək istəyirdisə, "sovet xalqı"nın tərkib hissəsi kimi biz türklər də həmin "gözlə qardaş dövlətə baxırdıq".

Bir sıra dəyərli oxucuya indi bu müqayisələr mənasız və yersiz gələ bilər. Ancaq müəyyən prizmadan baxanda düşmən həmin üsuldan informasiya, təbliğat və KİV sahələrində istifadə edir və təəssüf ki, nəticə əldə etməyə başlamışdır. Hazırda başqa termin və formalarda türk xalqlarını bir-birinə qarşı qoymaq, onların birini digərinin gözündən salmaq və bütövlükdə "siz fərqlisiniz" cəfəngiyyatını başlara yeritmək istiqamətində dəridən-qabıqdan çıxırlar. Çox təəssüf ki, onların sırasında türk cəmiyyətlərinin içində olan türklər və qeyri-türklər də var.

Məsələnin mahiyyətinə varmaq üçün ümumi "düşmən" adlandırılan dairələrin tam əhatəsini düzgün təsəvvür etməliyik. Onlar indi beyinlərə yeridilmiş erməni obrazı ilə məhdudlaşmır. Əslində hazırda ermənilər bu istiqamətdə ən passiv "düşmənlərdəndirlər".

Bundan başqa, dəqiq müəyyən edilmiş sərhəd yoxdur. Onlar ən uzaq yerdə də vardırlar, öz içimizdə tərəfdarlar da tapmışlar. İdeoloji və etnik faktorlardan istifadə edərək əsasən media vasitəsi ilə "su bulandırmağa" çalışırlar.

Məsələnin bu tərəfinə keçmədən öncə bir mühüm ümumi siyasi, ideoloji və geosiyasi məqama toxunaq.

## Türk inteqrasiyasının ümumi mahiyyəti və mümkünlüyü

İndi geniş geosiyasi məkanda ən güclü dövlətlər belə Türk dünyasının birləşməsi prosesinə əngəl olmağa çalışırlar. Görəsən, səbəb nədir? Ümumiyyətlə, türk kimliyinə nifrətmi? Yoxsa, başqa emosional bir münasibət onları içlərindən yeyir? Hər iki variant ola bilər. Ancaq bizcə, daha dərində olan və müəyyən dairələrin anlamağa başladığı bir faktor daha önəmlidir. Türk dövlətlərinin və xalqlarının inteqrasiyası digər birləşmə modellərindən daha potensiallıdır. Bunu tarix yetişdirmiş, əsrlərdir gedən müxtəlif səviyyəli proseslər formalaşdırmışdır. Türklərin inteqrasiyasının kökündə fərqliliklərin vəhdəti qaydası dayanır. Bu aspektdə türk dövlətləri ilə müqayisə olunacaq yeganə inteqrasiya modeli ABŞ-dir. Ancaq türklər daha çox imkana malik təkamül nümunəsi üzrə inkişaf etmişlər. Bu prosesin müxtəlif aspektlərinə daha detallı baxaq.

## Türk hüququ

Türk xalqlarının qədimdən özünütəşkiletmələrinin maraqlı hüquqi cəhəti mövcud olmuşdur. Türklərdə tarixin bütün dönəmlərində özünüyaratma qanunu dövlətçilikdə də hüququn bünövrəsini təşkil etmişdir. Buna qədim türklər Yosun və ya Mamır Qanunu demişlər. Əsas fərqləndirici cəhəti ondan ibarətdir ki, türk insanının ailə qurmaqdan başlamış, sonrakı birgəyaşam formalarının hər birində törə qaydalarını önə çıxarmaq hüququ təbii sayılmışdır. Bu, türk qövmünə kökü üzərində çoxalmaq imkanı vermişdir. Yəni hökmdar və ya parlament hüququ öz təsirini göstərir, ancaq onların heç biri xalqın özünüyaratması hüququndan üstün deyildir. Buna görə də türk xalqlarında suverenlik, müstəqillik, azadlıq məsələləri dövlət suverenliyi, müstəqilliyi və azadlığının təməlində dayanır. Deməli, əsrləri əhatə edən maraqlı inteqrativ mənzərə alınır.

Türk xalqının hansı geosiyasi, siyasi, coğrafi, ideoloji mühitə düşməsindən asılı olmayaraq, onun inkişafı digər türk xalqlarla eyni olan təkamül fəlsəfinə, üsuluna əsaslanır. Türkün dilində müəyyən ikincidərəcəli dəyişiklik ola bilər. Sözün tələffüzündə yerli siyasi, coğrafi, mədəni və geosiyasi özəlliyə uyğun hansısa fərqlilik mümkündür. Lakin kökdə həmin türkün digərlərindən qətiyyən fərqi yoxdur. Dünyanın istənilən guşəsində türkün "doğum, yaşam, yeniləşmə ətri" eynidir. Həmin "ətrin" üç çaları vardır – törəyə bağlılıq, müasir dünyaya çevik adaptasiya və onu dəyişməklə liderliyə can atma. Liderliyə can atmanın stimullaşdırıcı faktoru isə türkün ilahi ədaləti və nizamı dünyaya yaymaq niyyəti ilə əlaqəlidir.

Deməli, yaşamın və dövlət qurmanın üç mühüm təməl hüququnda türk xalqları əsrlərcə dəyişməmişlər, indi də dəyişmirlər. Türkiyəli, azərbaycanlı, qazaxıstanlı, özbəkistanlı, türkmənistanlı, qırğıstanlı və digər türk xalqlarının nümayəndələri vurğulanan dəyərlərin daşıyıcılarıdırlar. Onlar fərqli geosiyasi, mədəni, siyasi, ideoloji məkanda əsrlərlə mövcud ola bilərlər, lakin özünüyaratma və dövlətqurma fəlsəfəsi dəyişməz olaraq qalır. Türk xalqları sanki kökdən bir ağacın müxtəlif qolları kimi böyüyür və bəhrələrini ortaq kökə verirlər. Bu məqam dünyada unikaldır. İstənilən tarixi dönəmdə türk inteqrasiyasının təkanverici faktorudur.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Paşinyanın "Facebook" tezisləri: "Ekslərə gilyotin!"

*Ermənistanın baş naziri gələn ilin seçki mübarizəsinə start verdi*

**Ermənistanın baş naziri Nikol Paşinyan özünün "Facebook" səhifəsində ölkənin eks–rəhbərlərinə ittiham yağdırıb. Bəri başdan deyək ki, Nikol nə etdiyinin yaxşı fərqindədir. Məlum olduğu kimi, onun rəhbər olduğu "Vətəndaş sazişi" Partiyası bir neçə gün əvvəl qurultayını keçirdi və həmin ali məclis də 2026-cı ildə keçiriləcək parlament seçkilərində özünün qələbə hədəfini müəyyənləşdirdi. Qurum, eyni zamanda, mühüm strateji prioritetlər də açıqladı ki, bütün bunlar "eks"lərin baxışlarına tamamilə ziddir və heç şübhəsiz, onlar antiiqtidar kampaniyalarını gücləndirəcəklər. Bu kampaniyanın məğzində isə hazırkı hakimiyyətin Qarabağ uğursuzluğunu qabartmaq, ona satqın damğası vurmaq dayanır.**




Belə bir deyim var ki, əgər davanın qaçılmazlığını bilirsənsə, o zaman çalış, birinci vur. Hazırda erməni baş nazir də 2026-cı ildə keçiriləcək parlament seçkiləri davasında, obrazlı desək, hamını qabaqlayıb birinci zərbəni endirir. Əslində, o, mahiyyətcə yenilik açıqlamır, əvvəl dilə gətirdiklərinə emosional ton verir. Hər bir halda, Paşinyanın bildirdikləri demarş təsiri bağışlayır və bu baxımdan baş nazirin gedişinin tutarlı alındığını söyləmək mümkündür. Çünki erməni hakimiyyətinin prizmasından yanaşsaq, insanlara nələrisə yada salmaq lazımdır. Lazımdır ki, onlar yanlış yönlənməsinlər.

Beləliklə, Paşinyan Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanı nəzərdə tutaraq yazıb ki, o, ölkəni müharibəyə cəlb etdi və qaçdı. Həqiqətən, durum Nikolun bildirdiyi kimidir. Birinci Qarabağ müharibəsində Ermənistan Rusiyanın köməyi ilə uğur əldə etdi. Ancaq 1994-cü il atəşkəsdən sonra aparılan danışıqlar prosesi ortaya tamam fərqli reallıqlar qoydu. Ulu öndər Heydər Əliyev, demək olar, bütün beynəlxalq platformada Ermənistanın haqsız yol tutduğunu sübuta yetirdi. L.Ter-Petrosyan duruma müqavimət göstərə bilmədi, ara-sıra Azərbaycana güzəştlərin vacibliyini vurğuladı, sonda ilahi ədalət naminə tarixi məsuliyyəti üzərinə götürməkdə zəiflik göstərdi və prezidentlikdən istefa verdi.

Ardınca ölkədə "Qarabağ klanı"nın təmsilçiləri sayılan Robert Köçəryan və Serj Sarkisyanın dövlət başçılığı dönəmlərində isə "müharibə qalibiyyətinin" eyforiya mərhələsi yaşandı. İndi Paşinyan özünün məsxərə qabiliyyətini işə salaraq bildirib: "Qalib prezidentlər, qalib prezidentlər. Üçüncü respublikanın tarixini düşünərkən dəhşətlə fərqinə vardım ki, "qalib prezident" adlandırılanlardan heç biri, təsəvvür edirsinizmi, heç biri heç vaxt xalqın etimad səsini almayıb".

Bəli, Ermənistanın baş naziri, faktiki olaraq, həm də Azərbaycana qarşı müharibənin bir qrup şəxsin avantürası olduğunu, savaşın xalqın iradəsinə əsaslanmadığını vurğulayır. Bu, son dərəcə ciddi bəyanatdır. Amma Paşinyanın öz məntiqi var: "Eşidin, əgər siz xalqa qələbə gətirmisinizsə, izah edə bilərsinizmi ki, niyə 1996-cı ildən başlayaraq seçkiləri saxtalaşdırırdınız? Necə ola bilərdi ki, xalq özünə qələbə gətirən liderləri seçməsin? Necə? Seçmirdi, çünki sizin tərəfinizdən pul verilən analitiklərə, "xalq artistlərinə" və "əməkdar sənətkarlara" rəğmən, Ermənistanı bəsləyən analar və onların arxasında səssiz və düşüncəli dayanan ata-babalar anlayırdılar ki, siz qələbə gətirməmisiniz, əksinə, Ermənistanı çıxışı olmayan uçuruma sürükləmisiniz. İndi ölürsünüz, görürsünüz ki, bəli, minlərlə qurbanın hesabına o çıxış yolu tapılıb. Sözün əsl mənasında, gündə üç dəfə ölürsünüz. Bir dəfə səhər, bir dəfə günortadan sonra və bir dəfə də qaranlıq çökəndə".

Əvvəldə bildirdiyimiz kimi, Paşinyan birinci zərbəni endirir və "eks"ləri debata çağırır. O da məlumdur ki, Nikol indiyədək belə çağırışlar edib və həmişə qarşı tərəf onu məsxərə predmetinə çevirib, baş nazirə cavabı özlərinin yaxın adamları vasitəsilə çox aşağılayıcı tərzdə verib. Deyəsən, hazırda növbə Paşinyanındır. "İndi isə deyin, debatlara gələcəksinizmi, ya yox? Ktrici, Samonu, Gevorqu, Vazgeni də özünüzlə gətirə bilərsiniz. Debatı "Yerevan-Kentron"dakı keçmiş kameramda təşkil edə bilərik ki, hamınıza uyğun olsun", - deyən baş nazirin həbs müddətini keçirdiyi kameranı yada salması xüsusi anlam daşıyır. Şübhə yoxdur ki, Nikol sabiq prezidentlərin cəza çəkməli olduqlarını vurğulayır. O, eyni zamanda, özünəxas şəkildə "eks"ləri təxribata çəkməyi də yaddan çıxarmır: "Xalq sevinclidirsə, debatdan qaçan tanınmış üçlük kədər içərisindədir. İndi xalq sevinclidir ki, sülh var, əsgər ölmür".

Ermənistanın keçmiş liderlərini aşağılayan Paşinyan onu da bildirib ki, onunla debatdan qaçan üçlük hazırda depressiyaya düşüb. "Onlara qurbanların real sayı kifayət deyil və özlərinin arzuladıqları rəqəmləri səsləndirmək üçün fürsəti əldən vermirlər, xüsusən "tərs kimi" bu rəqəm artmır. İndi deyin görək, debata gələcəksiniz, ya yox?", - deyən baş nazir Paşinyan Ermənistanın keçmiş rəhbərlərinin və komandalarında təmsil olunan şəxslərin Nikolun ölkəni müharibəyə cəlb etdiyinə dair ittihamlarına da cavab verməyi yaddan çıxarmayıb və bu zaman ortaya son dərəcə maraqlı tezis atıb. O, ritorik tərzdə 2018-ci ildə Ermənistanın 18 yaşlı əsgərinin ölkənin suveren ərazisindən kənarda nə işinin olduğunu soruşub. Yadınızdadırsa, hələ 44 günlük müharibədən əvvəl Azərbaycanın müdafiə naziri Zakir Həsənov analoji bəyanat səsləndirmişdi. Onun dediklərindən gəlinən qənaət bu idi: Ermənistan əsgəri ölmək istəmirsə, ölkəmizə aid ərazini tərk etsin.

44 günlük müharibəni bir kənara qoyaq, axı savaşdan sonra da Azərbaycan ərazisində Ermənistan əsgərləri qalmışdılar və onların müəyyən qismi 2023-cü ilin lokal xarakterli antiterror tədbirləri zamanı həyatlarını itirdilər. Çox güman, 18 yaşlıları da var idi. Elə isə bu ölümlərə görə cavabdeh kimdir? Əlbəttə, Paşinyan suala cavab tapacaq deyil. Amma onun "eks"lərə deməyə sözü kifayət qədərdir. Məsələn, baş nazir Ermənistanın sabiq prezidentlərinin öz övladlarını və nəvələrini ön xəttə göndərmədiklərini vurğulayıb: "Cavab verin, həmin vaxt sizin övladlarınız harada idi və nə ilə məşğul idilər?".

Azərbaycanda bir deyim var: Qara məni basınca, qoy qaranı mən basım. Paşinyanın "Facebook"dakı son paylaşımları məhz bu deyimi yada salır. Nikol, prinsip etibarilə, partiyasının qurultayında açıqlanmış tezislərin həyata keçirilməsinə maneələrin aradan qaldırılmasına start verir. Hər halda, onun ittiham yağışını belə qiymətləndirmək mümkündür. Tam aydındır ki, Paşinyan 2026-cı ilin parlament seçkiləri zamanı Ermənistanın hakim komandasına qarşı mübarizədə istifadə olunacaq başlıca tezisləri sıradan çıxarmağa indidən qol çırmayıb. Əminliklə deyə bilərik ki, Nikol və tərəfdarları, belə demək mümkünsə, "eks"lər üçün gilyotin mövzusunu qarşıdakı müddətdə daha da təkmilləşdirəcək və zənginləşdirəcəklər. Onların təhlükənin üzərinə yeriməkdən başqa çarələri yoxdur və indilik bu, doğru yoldur. Bu yolun Nikol və tərəfdarlarını seçkilərdə uğura daşıyıb-daşımayacağını isə zaman göstərəcək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Serbiya Milli Assambleyasının sədri Azərbaycana rəsmi səfərə gəlib



**Serbiya Respublikası Milli Assambleyasının sədri Ana Brnabiç sentyabrın 23-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Serbiya Milli Assambleyasının sədrini Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov, Azərbaycanın Serbiyadakı səfiri Kamil Xasiyev, Serbiyanın ölkəmizdəki səfiri Draqan Vladisavljeviç və digər rəsmi şəxslər qarşılayıblar.

# Səudiyyə Ərəbistanı Krallığının 95-ci Milli Günü Bakıda qeyd edilib





**“Azərbaycan Səudiyyə Ərəbistanı ilə münasibətlərə xüsusi önəm verir. Ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən səmərəli əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq inkişaf etməkdədir”. Bunu Baş nazirin müavini Samir Şərifov Səudiyyə Ərəbistanı Krallığının 95-ci Milli Günü münasibətilə keçirilən tədbirdə çıxışı zamanı deyib.**

Baş nazirin müavini daha sonra qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud və krallığın vəliəhdi Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun səyləri nəticəsində əlaqələrimiz həm ikitərəfli qaydada, həm beynəlxalq təşkilatlar çərçivəsində uğurla davam etməkdədir: “Azərbaycan və Səudiyyə Ərəbistanı hökumətlərinin yaratdığı iqtisadi əməkdaşlıq üzrə müştərək komissiya ölkələrimiz arasında siyasi, ticarət, investisiya, enerji, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığın dərinləşməsində müstəsna rol oynamaqdadır. Birgə iqtisadi komissiyasının iclasları və siyasi məsləhətləşmələr ikitərəfli münasibətləri nəzərdən keçirmək və inkişaf etdirmək üçün olduqca effektiv mexanizmlərdir”.

Bildirilib ki, Bakıda keçirilən Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda Səudiyyə Ərəbistanından böyük nümayəndə heyətinin iştirak etməsi ikitərəfli əməkdaşlığın inkişafında hər iki dövlətin maraqlı olduqlarının daha bir nümunəsidir.

Mərasimdə Səudiyyə Ərəbistanı Krallığının 95 illiyi münasibətilə qardaş ölkə xalqına daim əmin-amanlıq, tərəqqi və firavanlıq arzuları səslənib, ölkələrimiz arasında dostluq, qardaşlıq və faydalı əməkdaşlığın gələcəkdə daha da güclənəcəyinə əminlik ifadə edilib.

***XQ***

# IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva Nyu-Yorkdakı Müasir İncəsənət Muzeyində olublar





**Sentyabrın 23-də IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva Nyu-York şəhərində Müasir İncəsənət Muzeyində (Museum of Modern Art-MoMA) olublar.**

Leyla Əliyeva və Arzu Əliyevaya muzey haqqında məlumat verildi.

Bildirildi ki, burada 1929-cu ildən bəri dünyanın ən dəyərli incəsənət əsərləri qorunaraq nümayiş etdirilir. Rokfeller ailəsinin dəstəyi ilə yaradılan muzey bu gün dünyanın ən mötəbər sənət məkanlarından biridir. Yalnız rəsm deyil, foto, heykəltəraşlıq, memarlıq layihələri, film, hətta elektron media əsərləri də muzeyin kolleksiyasında yer alır. Burada Pablo Pikasso, Vinsent Van Qoq, Endi Vorhol və Henri Matissa kimi sənətkarların dünyada məşhur əsərlərinə rast gəlmək olar. Muzeyin kitabxana və arxiv bölməsi isə tədqiqatçılar üçün əvəzsiz mənbədir. Minlərlə kitab, fayl və sənəd kolleksiyası buranı həm də elmi mərkəzə çevirib.

***AZƏRTAC***

# Naftalan: ilk mülki şəhidlərin ailəsi ziyarət olundu



**27 Sentyabr – Anım Günü ərəfəsində Naftalan şəhərində Vətən müharibəsinin ilk mülki şəhidlərinin ailəsi dərin ehtiramla ziyarət edilib. Ziyarətdə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, Türkiyə Cümhuriyyətinin Gəncə şəhərindəki baş konsulu Recep Öztop, Avropa Azərbaycan Məktəbinin direktoru Francesco Banchini və digər rəsmi şəxslər iştirak ediblər.**

Ziyarət zamanı 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qazandığı şanlı Qələbədən bəhs olunub. Qeyd olunub ki, şəhidlərimizin müqəddəs qanı ilə yazılan bu zəfər xalqımızın milli birliyinin, əzm və iradəsinin simvoludur.

Tədbirdə şəhidlərin xatirəsinin daim uca tutulacağı, onların ailələrinin hər zaman dövlətin diqqət və qayğısı ilə əhatə olunacağı vurğulanıb. Qurbanovlar ailəsinin üzvləri göstərilən bu mənəvi dəstəyə və qayğıya görə ölkə rəhbərliyinə dərin təşəkkürlərini bildiriblər.

Kədərli bir xatirə ilə yaddaqalan bu ailə faciəsi 27 sentyabr 2020-ci ildə Naftalan şəhəri, Qaşaltı Qaraqoyunlu kəndində düşmənin atdığı mərminin Qurbanov Elbrus İsa oğlunun evinə düşməsi nəticəsində biri körpə olmaqla beş ailə üzvünün şəhid olması, Vətən müharibəsinin ilk sivil qurbanları kimi tarixə yazıldı.

Bu faciə xalqımızın nə qədər ağır bir sınaqdan keçdiyini göstərsə də, eyni zamanda, millətimizin düşmən qarşısında əyilmədiyini, əksinə, birlik və mübarizə ruhu ilə ayağa qalxaraq torpaqlarını azad etdiyini sübut edir.

Bu gün şəhidlərimizin ruhu qarşısında baş əyir, onların əziz xatirəsini dərin ehtiramla yad edirik. Onların fədakarlığı sayəsində əldə etdiyimiz suverenlik və ərazi bütövlüyü sabahımıza olan inamı və qüruru daha da gücləndirir.

***Hm  let QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# MEDİA: Son dövrlər Azərbaycana qarşı dezinformasiya kampaniyasının başlanması müşahidə olunur

**Son dövrlər bir sıra xarici ölkələrin informasiya resurslarında və sosial media seqmentlərində Azərbaycana qarşı növbəti dezinformasiya kampaniyasının başlanması müşahidə olunur. Yayılan məlumatların bir qismində guya Azərbaycanın üçüncü ölkə vasitəsilə Ukraynanı silahlandırmasına dair saxta xəbər, digər qismində isə Azərbaycanın İsrailə görə Avroviziya mahnı müsabiqəsində iştirakdan imtinası ilə bağlı həqiqəti əks etdirməyən iddialar yer alıb.**

Bu barədə Medianın İnkişafı Agentliyinin açıqlamasında bildirilir.

Qeyd olunur ki, Azərbaycana qarşı dezinformasiya yayan media resurslarının saxta xəbərlərinin təsiri altında Türkiyə mediasında və sosial media seqmentində bu kimi materialların yenidən tirajlanması dərin təəssüf hissi doğurur.




“Beynəlxalq ictimaiyyəti, media resurslarını, jurnalistləri və ictimai fəalları bu kimi dezinformasiya və saxta xəbərlərə inanmamağa çağırır, belə hallara qarşı prinsipiallıq, sayıqlıq nümayiş etdirməyə səsləyirik”, – deyə açıqlamada vurğulanıb.

***XQ***

## Ağdamda mina partlayışı baş verib, bir nəfər həlak olub

**Sentyabrın 23-də Ağdam rayonunun Mirəşelli kəndi ərazisində mina partlayışı baş verib.**

Bu barədə Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Minatəmizləmə Agentliyinin mətbuat xidmətləri birgə məlumat yayıb.

Qeyd olunub ki, 1971-ci il təvəllüdlü Baharlı kənd sakini Əhmədov Səyyaf Fiqan oğlu minalardan təmizlənməmiş qəbiristanlıq ərazisində mina partlayışı nəticəsində həlak olub.

Faktla bağlı Ağdam Rayon Prokurorluğunda araşdırma aparılır.

ANAMA, DİN və Baş Prokurorluq bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa və bələd olmadıqları ərazilərə daxil olmamağa çağırır.

***XQ***

*Xuntaçıların məhkəməsi*

# Ermənistanın hərbi cinayətləri təsdiqini tapır



**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi sentyabrın 23-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan (ehtiyat hakim Günel Səmədova) ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında zərərçəkmiş şəxs Məmmədtağı Kərimov Kəlbəcərdə düşmənin təxribatı nəticəsində yaralandığını, bir neçə nəfərin həlak olduğunu və daha bir neçə nəfərin xəsarət aldığını deyib.

Zərərçəkmiş Ceyhun Məmmədli Kəlbəcərdə yaralıların təxliyəsi zamanı düşmənin açdığı atəşlər nəticəsində özünün və yanında olmuş digər şəxslərin yaralandıqlarını bildirib. Məhkəmədə Nemət Abdullayev, Bəxtiyar Səmədli, Ağahüseyn Hacıyev, Tərlan Cabbarov və Sadiq Qasımlı, Məhəmməd Hüseynov, Nəsir Bayramov, Vaqif Salmanov və Əli Mustafayevin Xankəndidə yaralandıqları qeyd edilib. Fərid İmaməliyevin Xocavənddə xəsarət aldığı, Əvəz Abbasovun həlak olması, bir neçə nəfərin isə yaralanması bildirilib.

Çingiz Paşayev Ağdam rayonunda, İlyas Mehdiyev Xocavənddə yaralandığını bildirib. Ramal Rüstəmov Ağdərədə, Nəcəfəli Mövsümov Xocalıda, Ramiz Süleymanov, Musa Orucov və Şahin Cəbiyev Xankəndidə, Ceyhun Həsənov Laçında, Hüseyn Axundov, Seymur Əliyev və Elvin Əhmədov Ağdərədə yaralandıqlarını söyləyiblər.

Tural Quliyev Ağdamda yaralanıb. Mahirəddin Namazov Xocavənddə xəsarət



alıb, bir neçə nəfər həlak olub, bir neçə şəxs isəyaralanıb. Sənan Fərzəliyev, Murad Hacıyev və bir neçə nəfər Laçında xəsarət alıblar. Yaqubəli Səfərov Xankəndidə xəsarət alıb, bir nəfər həlak olub, bir neçə şəxs isə yaralanıb. Cavanşir Xəlilov, Nemət Nuri və bir neçə nəfər Ağdamda yaralanıb.

Fərhin Teymurov, Rüstəm Əliyev, Həsən Əliyev, Azər Qazaxov, Şükür Camalov, Cəfər Məlikov, Tural Xəlilov, Hüseyn Mehdizadə, Kamal Musayev, Səbuhi Əliyev, Seymur İbrahimov, Ramiz Nəzərov, Ülfət Alıyev, İmran Mürsəlov, Rəşad İsmayılov, Vüqar Abbasov, Toğrul Hümbətzadə və Kamran Kazımov, Əfqan Zeynalov Ağdam, Hüseyn Əmirov və Sənan Rzayev və bir neçə nəfər isə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəşlər nəticəsində yaralandıqlarını bildiriblər.

Məhkəmənin növbəti iclası sentyabrın 30-na təyin olunub.

***XQ***

# Azərbaycan iqtisadiyyatı 10 milyard dollardan çox yatırım qazanacaq

**I Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda imzalanmış sazişlərin ümumi dəyəri açıqlanıb. Bu barədə Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" hesabında paylaşım edib.**




Nazir bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin himayəsi altında Bakıda keçirilən Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu Azərbaycanın xarici sərmayə üçün açıq və dayanıqlı iqtisadi mühitini, ölkənin strateji layihələr və uzunmüddətli əməkdaşlıqlar üçün etibarlı tərəfdaş olduğunu bir daha nümayiş etdirdi.

O vurğulayıb ki, forum çərçivəsində ümumi dəyəri 10 milyard ABŞ dollarından çox olan investisiya layihələrinə dair sənədlər imzalandı: "Bunlardan ölkəmizdə xarici investisiyaların cəlbi ilə qeyri-neft sektoru üzrə həyata keçirilməsi nəzərdə tutulan layihələrin dəyəri 7 milyard ABŞ dollarından çoxdur. Böyük miqyaslı sərmayələr iqtisadiyyatın diversifikasiyasına, innovasiya və texnologiya transferinin sürətləndirilməsinə, rifahın yüksəldilməsinə yeni imkanlar açır.

Ölkəmizin iqtisadi potensialının reallaşdırılmasına töhfə verən forumun keçirilməsinə göstərdiyi böyük dəstəyə görə cənab Prezident İlham Əliyevə, eləcə də tədbirin təşkilatçılarına, dövlət rəsmilərinə, tərəfdaşlarımıza və bütün iştirakçılara dərin təşəkkürümüzü bildiririk".

***XQ***

# AİB ölkəmizə dəstək göstərməyə hazırdır

**Asiya İnkişaf Bankı (AİB) böyük infrastruktur və enerji layihələrinin həyata keçirilməsində Azərbaycana ekspert və maliyyə dəstəyi göstərməyə hazırdır. Bunu bankın ölkəmizdəki nümayəndəliyinin rəhbəri Sunniya Durrani-Camal Bakıda keçirilən I Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun 2-ci günündə bildirib.**



Təmsil etdiyi qurumun ölkələr və regionlar qarşısında duran çox mürəkkəb çağırışlarla üzləşdiyini diqqətə çatdıran bank rəsmisi deyib: "Cənub-Şərqi və Cənubi Asiyada özəl sektor investisiyaları, dövlət-özəl tərəfdaşlığı layihələri ilə bağlı təcrübəmizdən istifadə edərək uğurla sınaqdan keçirilmiş həlləri Azərbaycan da daxil olmaqla region bazarlarına köçürük. Məsələn, tələbin artması şəraitində enerji şəbəkələrinin inteqrasiyası və az inkişaf etmiş ölkələrin milli və ya regional şəbəkələr yaradaraq enerji çatışmazlığı ilə üzləşən dövlətləri enerji ilə təmin edə bilməsi məsələlərini nəzərdən keçiririk".

Onun sözlərinə görə, AİB bank texniki ekspertiza – 152 milyard ABŞ dolları məbləğində zəmanətli kapital, müxtəlif şəraitlərdə – quraqlıqdan geosiyasi dəyişikliklərə qədər 60 ildən çox iş təcrübəsi ilə hərtərəfli dəstək təklif etməyə hazırdır. "Biz bu prosesdə sizə kömək etmək üçün buradayıq. Biz ən mürəkkəb layihələrin həyata keçirilməsində Azərbaycana dəstək verməyə hazırıq", – deyə nümayəndəliyin rəhbəri vurğulayıb.

***XQ***

# Sabahın "yaşıl iqtisadiyyat"ı



**(əvvəli 1-ci səhifədə)**

Dövlət başçısı qeyd edib: "Təbii qazla yanaşı, günəş və külək enerjisi layihələri, Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonası, eləcə də "ağıllı infrastruktur" konsepsiyalarının tətbiqi ölkəmizi qlobal enerji keçidinin aparıcı iştirakçılarından birinə çevirir. Beləliklə, Azərbaycan həm bu günün enerji təhlükəsizliyini möhkəmləndirir, həm də sabahın "yaşıl iqtisadiyyat"ını qurur". Bu hədəfə çatmaq üçün ölkəmizin potensial imkanları olduqca yüksəkdir. Aparılmış tədqiqatların nəticələrinə əsasən, Azərbaycanın bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135 qiqavat, dənizdə isə 157 qiqavat təşkil edir. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı isə quruda 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji üzrə 380 meqavat, dağ çayları üzrə isə 520 meqavat həcmində qiymətləndirilir.

Artıq bu potensialın hərəkətə gətirilməsi istiqamətində ölkəmizdə mühüm layihələr həyata keçirilir. Məlum olduğu kimi, 2023-cü il oktyabrın 26-da 230 meqavat gücündə olan "Qaradağ" Günəş Elektrik Stansiyası istifadəyə verilib. Yeri gəlmişkən, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən 262 milyon dollarlıq investisiya hesabına ərsəyə gələn bu stansiya Xəzər dənizi və Cənubi Qafqaz regionlarının ən böyük günəş elektrik stansiyası sayılır.

Bununla yanaşı, hazırda ölkəmizdə bir sıra günəş və külək enerji stansiyalarının inşası sürətlə davam etdirilir. Bu yaxınlarda isə Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti tərəfindən tikintisi həyata keçirilən "Xızı-Abşeron" külək elektrik stansiyasının birinci növbəsi işə salınacaq. Ümumilikdə isə qarşıdakı 2 ildə Azərbaycanda ümumi gücü 2 min meqavatdan artıq olan 10 günəş və külək elektrik stansiyası istismara verilərək şəbəkəyə qoşulacaq. Bütün bu işlərə, təqribən, 2,7 milyard ABŞ dolları həcmində sərmayə yatırılması planlaşdırılır.

Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun ilk günündə ölkəmizin bərpaolunan enerji potensialı və bu sahədə görülən işlər barədə ətraflı söhbət açılıb, maraqlı fikir və mülahizələr irəli sürülüb. Məsələn, Azərbaycanın energetika naziri Pərviz Şahbazov çıxışında bildirib ki, 2030-cu ilə qədər ölkənin enerji istehsal gücündə bərpaolunan enerjinin payını 38 faizə çatdırmaq nəzərdə tutulur. Nazirin sözlərinə görə, hazırda Xəzər dənizində külək enerjisi potensialının qiymətləndirilməsi, ərazilərin müəyyənləşdirilməsi və ofşor elektrik stansiyalarının tikintisi üzrə 7 yerli və beynəlxalq şirkətlə əməkdaşlıq aparılır. Qeyd olunub ki, 2032-ci ilə qədər 6 qiqavatdan çox onşor və ofşor günəş və külək gücünün yaradılması və Xəzər – Qara dəniz –Avropa "yaşıl enerji" dəhlizlərinin mərhələli şəkildə işə salınması nəzərdə tutulub.

"Bununla yanaşı, Azərbaycan – Türkiyə – Avropa və Azərbaycan – Gürcüstan – Türkiyə – Bolqarıstan "yaşıl enerji" dəhlizi layihələri həyata keçirilir. Bu layihələr həm Naxçıvan bölgəsindən, həm də Ermənistan üzərindən keçməklə Türkiyə ilə Avropanı əlaqələndirə, eyni zamanda Mərkəzi Asiya ilə körpü rolunu oynaya bilər", – deyə nazir əlavə edib.

Ölkəmizlə bərpaolunan enerji sahəsində fəal əməkdaşlıq edən Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin MDB ölkələri üzrə inkişaf və investisiya rəhbəri Məryəm Al Mazroyi isə çıxışında bildirib ki, təmsil etdiyi qurum Azərbaycandakı layihələrə 1,2 milyard ABŞ dolları həcmində investisiya yatıracaq. Şirkət rəsmisi ölkəmizlə "yaşıl enerji" sahəsində uğurlu əməkdaşlığın nəticəsi olan 230 meqavatlıq "Qaradağ" Günəş Elektrik Stansiyasının artıq iki ildir fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

2024-cü ildə keçirilmiş Bakı Enerji Həftəsi çərçivəsində SOCAR ilə birgə Azərbaycanda əlavə 1 qiqavatlıq layihələrin inkişafı üçün çox önəmli razılaşma imzaladığını xatırladan Məryəm Al Mazroyi bildirib ki, həmin layihələrə əsasən, hazırda "Biləsuvar" və "Neftçala" günəş elektrik stansiyalarının tikintisi davam etdirilir. Onun sözlərinə görə, üçüncü layihə isə 240 meqavatlıq quru tipli külək enerjisi layihəsidir.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin də bərpaolunan enerji potensialı olduqca yüksəkdir. Təsadüfi deyil ki, ölkə Prezidenti İlham Əliyev tərəfindən Qarabağ və Şərqi Zəngəzurun 10 min kvadratkilometrlik ərazisi "yaşıl enerji" zonası elan edilib. I Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda bu barədə məlumat verən energetika nazirinin müavini Orxan Zeynalov bildirib ki, Qarabağda günəş və külək enerjisinin potensialı 10 qiqavat həcmində qiymətləndirilir.

Bununla yanaşı, Azərbaycanın su ehtiyatlarının dörddəbiri də başlanğıcını bu regionlardan götürür. Ötən müddətdə bu istiqamətdə bir sıra uğurlu layihələr həyata keçirilib, ümumi gücü 170 meqavat olan kiçik su elektrik stansiyaları istifadəyə verilib. Onun sözlərinə görə, ümumilikdə, 2030-cu ilə qədər Qarabağ və Şərqi Zəngəzurda 1,6 qiqavat "yaşıl enerji"nin istehsalı planlaşdırılır ki, bu da regionun özünə lazım olandan 2 dəfə çox enerji istehsal etməyə imkan verəcək.

Eyni zamanda, artıq bp şirkəti tərəfindən Cəbrayıl rayonu ərazisində 240 meqavatlıq "Şəfəq" Günəş Elektrik Stansiyasının tikintisinə başlanılıb. Bakıda keçirilən I Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda bp-nin Xəzər regionu üzrə kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli "Şəfəq" layihəsinin üstünlüyü barədə məlumat verərək bildirib ki, stansiya istismara verildikdən sonra burada virtual enerji ötürülmə mexanizmi tətbiq olunacaq. Bu o deməkdir ki, istehsal prosesi zamanı əldə ediləcək 240 meqavatlıq günəş enerjisi milli şəbəkəyə ötürüləcək və həmin miqdarda enerji milli şəbəkədən alınaraq Azərbaycandakı neft-qaz emalı üzrə ən iri obyektinin – Səngəçal terminalının elektrikləşdirilməsinə yönəldiləcək. Bu da gələcək istismar dövründə terminal əməliyyatlarından yaranan emissiyaların, təxminən, 50 faiz azaldılmasına imkan yaradılacaq.

Yaxın illərdə ölkəmiz, həm də "yaşıl enerji"nin əsas ixracatçısına çevriləcək. Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan "Xəzər – Qara dəniz – Avropa Yaşıl Enerji Dəhlizi" sualtı elektrik kabelinin tikintisi haqqında strateji tərəfdaşlıq sazişi, 2024-cü ilin may ayında isə Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstanın enerji operatorları sözügedən layihənin reallaşdırılması üçün birgə müəssisənin yaradılması barədə memorandum imzalayıblar.

Bu marşrut Xəzər dənizinin Azərbaycan sektorunda istehsal olunan "yaşıl enerji"nin Gürcüstana, daha sonra Qara dənizin dibi ilə çəkilən kabellə Avropaya çatdırılmasını nəzərdə tutur. Dəhliz vasitəsilə ildə 4 qiqavat bərpaolunan enerjinin ixracı planlaşdırılır. Öz növbəsində Avropa Komissiyası 3-4 ilə çəkiləcəyi nəzərdə tutulan sualtı kabel xətti layihəsinin maliyyələşdirilməsinə 2,3 milyard avro ayırmağı planlaşdırır. Beləliklə də, "Xəzər – Qara dəniz – Avropa Yaşıl Enerji Dəhlizi" regionun rəqabət qabiliyyətini artıracaq və yeni investisiya imkanları yaradacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***



# Dünya Bankı da Orta Dəhlizin uğurlarında maraqlıdır

## *Marşrutda bu il 5,2 milyon ton yük daşınması gözlənilir*

**I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu (AIIF-2025) qlobal ticarətin yeni xəritəsini cızan platformaya çevrilərək həm investisiya imkanlarını, həm də Orta Dəhliz — Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TITR) ətrafında formalaşan strateji vizyonu diqqət mərkəzinə gətirdi. Forum Milli iqtisadiyyatın və regionun tranzit potensialının təqdimatı olmaqla yanaşı, Avrasiya əlaqələrinin möhkəmlənməsi üçün beynəlxalq əməkdaşlıq çağırışıdır.**

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Roland Prays forumda Orta Dəhlizin inkişafına Dünya Bankının fəal dəstəyinin davam edəcəyini vurğulayıb. O, infrastrukturun modernləşdirilməsi, tənzimləmə islahatları və rəqəmsal ticarətin təşviqi sahələrində layihələrin prioritet olacağını bildirib və Dünya Bankının digər beynəlxalq tərəfdaşlarla bu təşəbbüsləri əlaqələndirməyə hazır olduğunu qeyd edib.

Orta Dəhliz yeni iqtisadi taleyi yazan arteriyadır. Roland Praysın sözlərinə görə, dəhliz Şərqi Asiyanı Mərkəzi Asiya, Xəzər hövzəsi və Cənubi Qafqaz vasitəsilə Avropa ilə birləşdirərək regional inteqrasiyanı dərinləşdirir və enerji ilə rəqəmsal sahələr arasında sinerjini gücləndirir. Bu marşrut siyasi cəhətdən neytral mövqe saxlayaraq geosiyasi gözlənilməzliklərlə üzləşən ənənəvi kanallara etibarlı alternativ yaradır.

Rəqəmlər də bunu təsdiqləyir. 2024-cü ildə Orta Dəhliz vasitəsilə daşınan yüklərin həcmi 62 faiz artaraq 4,5 milyon tona çatdı. Bu göstərici marşrutun potensialına dair region aktorlarının hesablamalarını gücləndirir. 2025-ci il üçün həcmin 5,2 milyon tona yaxınlaşması gözlənilir. Proqnozlara görə, bunun təxminən 4,2 milyon tonu marşruta daxil ölkələrin ərazisindən keçəcək, daşımaların strukturunda isə həm quru yük (təxminən 2,5 milyon ton — 96 min TEU ekvivalenti), həm də enerji məhsulları (təxminən 1,7 milyon ton neft) mühüm pay təşkil edəcək.

Bu artımı davam etdirmək üçün əsas məqsəd genişmiqyaslı infrastruktur və idarəetmə işlərini tənzimləməkdir. Məhz bu inkişaf xətti ilə 2027-ci ilə qədər marşrutun ötürücülük qabiliyyəti ildə 10 milyon tona çata bilər. Bu, Azərbaycanın tranzit imkanlarını genişləndirmək, logistik xidmətlərdə dəyər zənciri yaratmaq və yerli investisiya ekosistemini canlandırmaq üçün əlverişli olacaq. Lakin dəmir yolu və liman sektorlarında daralmalar, tarif və rabitə tənzimləmələri hələ də ciddi diqqət tələb edən məqamlar olaraq qalır.

Digər tərəfdən, AIIF 2025-in gündəliyində investisiya axınlarının, maliyyə alətlərinin və regionlararası koordinasiyanın necə artırılacağı müzakirə mövzusu oldu. Dünya Bankı və digər beynəlxalq maliyyə qurumları ilə aparılan dialoqlar həmin mexanizmlərin qurulmasına əsaslı töhfədir. Yüksək səviyyəli əməkdaşlıq və birgə investisiya instrumentlərinin formalaşdırılması perspektivləri müzakirə predmetinə çevrildi.

Orta Dəhlizin iqtisadi faydaları yalnız yük daşımalarının həcminin artması ilə ölçülmür. Marşrut ölkələri regional logistik mərkəzlərə çevirərək tədarük zəncirlərində əlavə dəyər, yeni iş yerləri və sənaye klasterləri yaratmaq imkanlarını açır. Azərbaycanın tranzit mövqeyindən yararlanaraq xidmətlər, logistika və rəqəmsal həllər sahəsində əlavə gəlir mənbələri formalaşa bilər. Bununla birlikdə perspektivlər real siyasət və institusional gücləndirmədən asılıdır. Tarif şəffaflığının təmin edilməsi, sərhəd prosedurlarının sadələşdirilməsi, multimodal logistika infrastrukturunun modernləşdirilməsi və ətraf mühitə həssas yanaşma Orta Dəhlizin dayanıqlı inkişafı üçün vacib şərtlərdir. Forum bu məsələləri investisiya mənbələri ilə birbaşa əlaqələndirmək üçün əlverişli platforma təqdim etdi.

Nəticə etibarilə, AIIF-2025 Bakını regional investisiya və dialoq məkanına çevirərək Orta Dəhlizin gələcəyinə yönəlmiş mühüm siqnallar verdi. Marşrutun xəritəsi yenidən çəkildikcə, regional iqtisadi mənzərə daha dinamik, dayanıqlı və bir-biri ilə bağlı olacaq. Koordinasiya, sərmayə və institusional yeniliklər bir araya gətirilərsə, Orta Dəhliz Avrasiya üçün yeni ticarət və inkişaf xəritəsi formalaşdıracaq.

***Nurlan ABDALOV***
***XQ***

**Ekspert rəyi**



**Xalid KƏRİMLİ,**
**iqtisadçı-ekspert**

Hər şeydən əvvəl, Bakıda keçirilən Beynəlxalq İnvestisiya Forumunu qlobal güclərin iqtisadiyyata yanaşması aspektindən dəyərləndirmək lazımdır. Məsələn, ABŞ dünyada bir nömrəli iqtisadiyyatdır və qlobal ÜDM-in təxminən 26–27 faizinə sahibdir. Ancaq birbaşa xarici investisiyaların əhəmiyyətinə həssas yanaşır və bu istiqamətə bütün resurslarını yönəldir. Niyə? Çünki birbaşa xarici investisiyalar uzunmüddətli iqtisadi artımın əsas mənbəyidir. Bu, yeni iş yerlərinin açılmasına, texnologiyaların ölkəyə transferinə, ümumi daxili məhsulun və iqtisadi gücün artmasına səbəb olur, artımı sürətləndirir, insanların rifahını yüksəldir və dövlətin daha çox vergi toplamasına imkan yaradır.

Bakıda keçirilən Forum isə Azərbaycanın bu istiqamətdə imkanlarını nümayiş etdirir. Burada ölkənin yeni investisiyalara açıq olduğunu, əlverişli mühit yaratdığını və xarici sərmayəni cəlb etmək üçün real perspektivlərə sahib olduğunu dünyaya göstərir. Xüsusilə, investorlar riskli və gərgin zonalara sərmayə qoymaq istəmirlər. Forum potensial sərmayədarları ölkəyə dəvət etməklə hökumətin hansı layihələrə investor axtardığını və hansı perspektivlərin mövcud olduğunu göstərir. Çünki biznes qurmaq istəyən investorun ilk sualı budur: "Nə qədər qazanacağam və sərmayəmi necə geri qaytara biləcəyəm?".

Orta Dəhliz də bu kontekstdə əlavə imkanlar açır. Zəngəzur dəhlizinin (TRIPP) rolu xüsusilə böyükdür. Bu marşrut Mərkəzi Asiyanın resurslarını Azərbaycan üzərindən Qərbə, eyni zamanda Avropadan gələn yükləri Azərbaycan vasitəsilə Mərkəzi Asiyaya və Çinə daşımaq imkanı verir. Azərbaycan öz ərazisində böyük işlər görsə də, marşrutda iştirak edən digər ölkələrin infrastruktur imkanları həlledici əhəmiyyət daşıyır. Məsələn, Gürcüstanda limanın ötürücülük qabiliyyəti zəifdirsə, yaxud Qazaxıstanda dəmir yolu xəttində problem yaranırsa, bütün kanalın fəaliyyəti yavaşlayacaq.

Başqa sözlə, Orta Dəhlizin səmərəli işləməsi üçün bütün iştirakçı ölkələrin infrastrukturu yüklərin sürətli və çevik daşınmasına cavab verməlidir. Hazırda proqnozlarda təqdim olunan rəqəmlər konservativdir, çünki potensial böyük olsa da, nəzərə alınır ki, iştirakçı ölkələrin hər biri hələ öz infrastrukturunu inkişaf etdirməlidir. Gələcəkdə, xüsusən Zəngəzur dəhlizinin açılması ilə yükdaşımaların həcmi daha da arta bilər.

# Sosial islahatların hədəfi ümumi rifahın yüksəldilməsidir

**(əvvəli 1-ci səhifədə)**

İqtisadi inkişaf əhalinin rifahını yüksəldən, işsizliyi azaldan, təhsil və səhiyyəyə sərmayələri artıran və sosial təminatı gücləndirən maliyyə vəsaitləri yaradaraq sosial problemlərin həllinə böyük töhfə verir. Yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, işğaldan azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf mərhələsinin ideoloji nüvəsini təşkil edir.

Uğurlu, məqsədyönlü siyasət nəticəsində ildən-ilə daha yüksək inkişaf göstəriciləri nümayiş etdirən iqtisadiyyatın formalaşdırılması ölkədə işgüzar fəallığın daha da yüksəldilməsinə, yoxsulluğun azaldılmasına əlverişli şərait yaradıb, əhalinin etibarlı sosial müdafiəsini təmin edib. Azərbaycan regionun ən perspektivli ölkəsinə çevrilib.



Azərbaycan dövlətinin daxili siyasətinin ən mühüm istiqamətlərindən biri olan sosial müdafiə və sosial təminat sahəsində dərin islahatlar vətəndaşlarımızın rifah halının yaxşılaşdırılması və yaşayış səviyyəsinin yüksəldilməsinə etibarlı təminat yaradır. "Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Bizim artan iqtisadi gücümüz ölkəmizin güclənməsinə, ilk növbədə, xalqımızın rifah halının yaxşılaşmasına yönəlməlidir və biz bunu edirik" ideyası ölkəmizi regionda əhəmiyyətli siyasi-iqtisadi gücə çevirib. Prezident İlham Əliyevin həyata keçirdiyi daxili siyasət insanları firavan həyata qovuşdurmaqdadır. Məqsədyönlü sosial siyasətin nəticəsidir ki, dövlətimizin başçısı tərəfindən 2003-cü ildən bugünədək imzalanan Fərman və sərəncamlar 15-dən çox yeni aylıq sosial ödəniş növünün təsis edilməsinə, pensiya təminatında humanist yanaşmaların tətbiqi sosial təminat sisteminin əhəmiyyətli dərəcədə genişlənməsinə imkan yaradıb.

2018-ci ildən bəri ölkəmizdə 5 sosial islahat paketi icra olunub. Həmin islahatların illik əlavə maliyyə tutumu 7,6 milyard manat olmaqla 4 milyon nəfəri əhatə edib. Nəticədə, bu dövrdə minimum əməkhaqqı 3,1, minimum pensiya 2,9, orta aylıq pensiya 2,6 dəfə, orta aylıq əməkhaqqı isə 2 dəfəyədək artıb. Orta aylıq pensiyada 80 faiz artıma nail olunub. Sosial müavinət və təqaüd ödənişlərinin həcmi isə 5 dəfə artaraq 400 milyon manatdan 1,9 milyard manata çatıb. Ünvanlı dövlət sosial yardımın orta məbləği 2,6 dəfə, yaşayış minimumu 65 faiz, ehtiyac meyarı isə 2,2 dəfə artıb. Bu ildən icrasına başlanmış yeni sosial islahat paketi isə 4 milyon nəfəri əhatə edir. Pensiya ödənişlərinə ayrılan vəsait 2025-ci il üçün 7,2 milyard manatı ötüb ki, bu da 2018-ci ilə nisbətən 2 dəfə çoxdur.

Artımların şamil olunduğu kateqoriyalarda şəhid ailələri, aztəminatlı ailələr, əlilliyi olan şəxslər, o cümlədən müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, beşdən çox uşağı olan qadınlar, ailə başçısını itirən ailələr və digər həssas qruplardır. Bu kateqoriyalara yönələn sosial ödənişlərdə hər bir sosial islahat paketi üzrə ödənişlərdə ciddi artımlara nail olunması dövlətin xüsusi qayğısının növbəti əməli təzahürüdür.

Əmək bazarında da müsbət dinamika müşahidə olunur. Görülmüş işlər nəticəsində ölkə üzrə əmək müqavilələrinin sayı 46 faizdən, əməkhaqqı fondu isə 3 dəfədən çox artıb, işsizlik səviyyəsi 5,2 faiz təşkil edir. Hazırda hər ay 2,3 milyondan çox vətəndaşa pensiya, müavinət, təqaüd, kompensasiya və ünvanlı sosial yardım üzrə ödənişlər mərkəzləşmiş qaydada həyata keçirilir. Ötən müddət ərzində Dövlət Sosial Müdafiə Fondunun maliyyə dayanıqlılığı daha da gücləndirilib, son 6 ildə ümumi gəlirləri 2 dəfədən çox, sosial sığorta haqları üzrə gəlirləri isə 2,7 dəfə artıb. Sosial sahədə aparılmış islahatların nəticəsi olaraq əhaliyə ödənişlərlə bağlı xərclər isə 2 dəfəyə yaxın çoxalıb. Bu ilin yanvar-avqust aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən 506 min nəfərə sosial müavinət, 406 min nəfərə Prezidentin aylıq təqaüdü ödənilib. Əhaliyə sosial müavinətlər üzrə 758 milyon manat, Prezident təqaüdləri üzrə 483 milyon manat ödənilib.

Minimum əməkhaqqının artırılması aşağı gəlirli vətəndaşların maddi vəziyyətini yaxşılaşdırmaqla yanaşı, eyni zamanda, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan bütün işçilərin əməkhaqlarının artmasına səbəb olub. Nazirlər Kabinetinin təsdiqlədiyi və dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə işləyənlərin vəzifə maaşlarının müəyyən edildiyi Vahid Tarif Cədvəli çərçivəsində 19 pillənin ilk pilləsi üzrə əməkhaqqı 345 manatdan 400 manata çatdırılıb. Bu artım digər pillələrdə də maaşların orta hesabla 16 faizədək artırılmasına imkan yaradıb.

Beləliklə, yalnız minimum əməkhaqqı artımına uyğun olaraq 700 min nəfərə qədər işçinin maaşında artım olub. Yanvarın 1-dən etibarən, aylıq iş vaxtı normasını işləyən və əmək funksiyasını yerinə yetirən işçinin aylıq əməkhaqqı minimum əməkhaqqından az ola bilməz. Bu dəyişiklik işçilərin sosial müdafiəsinin gücləndirilməsi və onların maddi rifahının artırılması məqsədi daşıyır.

Son illərin təcrübəsi göstərir ki, orta aylıq əməkhaqqında davamlı və ciddi artımlar pensiyaların indeksləşdirilərək artırılması göstəricisinin daha yüksək olmasına imkan yaradıb. 2023-cü ildə pensiyaların artımı 14,7 faiz, 2024-cü ildə isə 11,2 faiz təşkil edib. Bu artımlar pensiyaçıların həyat səviyyəsinin yaxşılaşdırılmasında mühüm rol oynayıb və gələcəkdə də bu tendensiyanın davam edəcəyi gözlənilir. Həmçinin pensiya artımlarının həyata keçirilməsi zamanı vətəndaşların müxtəlif sosial ehtiyacları nəzərə alınır və bu, onların gündəlik həyatına müsbət təsir göstərir. Mühüm bir yenilik də odur ki, 2023-cü ilin əvvəlindən pensiya artımı sahəsində vahid indeksasiya metoduna keçilib. Bu metod hər ilin əvvəlində vahid yanaşma ilə bütün kateqoriyalardan olanların indeksləşdirilərək artırılmasına imkan verir.

Büdcə xərclərində bir sıra prioritet istiqamətlər müəyyənləşdirilib ki, sosial sfera da bu sırada yer alır. Azərbaycanın dövlət büdcəsi ənənəvi olaraq sosialyönümlülüyü ilə fərqlənir. Büdcədə sosial məqsədlər üçün ayrılan vəsaitlərin ildən-ilə artırıldığının şahidi oluruq. Sosialyönümlü xərclərin dövlət büdcəsində çəkisinin 41 faizə çatması isə sosial rifahın dövlət siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiqləyir. Bu artım, eyni zamanda, vətəndaşların həyat keyfiyyətinin yaxşılaşdırılması, sosial təminat sisteminin gücləndirilməsi və əhalinin həssas təbəqələrinin dəstək alması istiqamətində görülən tədbirlərin əhəmiyyətini göstərir.

***Mustafa KAMAL***
***XQ***

# Türkiyənin təhsil naziri Qarabağda



**Türkiyə Respublikasının milli təhsil naziri Yusuf Tekinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfəri çərçivəsində elm və təhsil naziri Emin Əmrullayevlə birgə işğaldan azad edilmiş ərazilərdə olub.**

Elm və Təhsil Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, nümayəndə heyəti səfər çərçivəsində Şuşa şəhər 1 nömrəli, Füzuli şəhəri Mirzə Uluqbəy adına 1 nömrəli və Ağdam şəhər 1 nömrəli tam orta məktəbləri ziyarət edərək təhsil ocaqlarında yaradılmış müasir tədris mühiti ilə yaxından tanış olub.

Yusuf Tekin Qarabağın sürətli bərpa və yenidənqurma prosesinin bir hissəsi kimi müasir təhsil infrastrukturunun da qısa müddətdə təkmilləşdirilməsini yüksək qiymətləndirib. Nazir Şuşa, Füzuli və Ağdam məktəblərində şagirdlər üçün yaradılmış müasir şəraitin Azərbaycanın gələcək nəsillərinin yüksək bilik və bacarıqlara yiyələnməsinə xidmət etdiyini xüsusilə vurğulayıb.

***

**Türkiyənin milli təhsil nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti Xankəndidə yerləşən Qarabağ Universitetinə də gəlib. Qonaqlar universitetin tədris prosesi və yaradılmış müasir infrastrukturu ilə yaxından tanış olublar.**

Universitetdə keçirilən ikitərəfli görüşdən sonra "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2017-ci il 31 oktyabr tarixli Sazişə Əlavə Protokol" və "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokola Əlavə Protokol" imzalanıb.

***Ləman TƏHMƏZ***
***XQ***

# Azərbaycan "Şəfqətli Türk dünyası"nda

**TÜRKSOY-un təşkilatçılığı ilə Qazaxıstanın Aktau şəhərində ilk dəfə "Şəfqətli Türk dünyası" İncəsənət Festivalı keçirilib.**

Beynəlxalq məclis müxtəlif ölkələrdən gələn əlilliyi olan istedadlı ifaçıları, rəssamları, rəqqasələri, aktyorları və pianoçuları bir araya toplayıb.

Azərbaycanı festivalda "Ümid var" İnklüziv Yaradıcılıq Birliyinin üzvləri, görmə məhdudiyyətli ifaçı Rəvanə Ağamirova, daun sindromlu rəqqasə Pərvanə Hüseynli və xoreoqraf Günay Muradinin tələbəsi Sevil Məmmədova təmsil ediblər. Onların ifasında təqdim olunan "Sarı gəlin", "Ay Laçın" xalq mahnıları, eləcə də "Tərəkəmə" və "Uzun dərə" xalq rəqsləri festival iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

Festival zamanı vurğulanıb ki, belə tədbirlər yalnız Türk dünyası mədəniyyətinin tanıdılması baxımından deyil, həm də qlobal miqyasda inklüzivliyin təşviqi üçün mühüm platforma rolu oynayır. Əlilliyi olan şəxslərin yaradıcılıq potensialının üzə çıxarılması və onların cəmiyyətə inteqrasiyası üçün bu cür festivalların əhəmiyyəti xüsusilə dəyərlidir.

Sonda Azərbaycan nümayəndə heyəti diplom, sertifikat və medallara layiq görülüb. Nümayəndə heyətinin rəhbəri Mədinə Məhərrəmovaya isə xüsusi təşəkkürnamə təqdim olunub.

Azərbaycan nümayəndə heyəti də öz növbəsində "Ümid var" İnklüziv Yaradıcılıq Birliyinin əlilliyi olan üzvlərinin hazırladığı əl işləri və rəsm əsərlərindən ibarət hədiyyələri TÜRKSOY rəhbərliyinə təqdim edib.

***Fidan ƏLİYEVA***
***XQ***

# Nəsimi fəlsəfəsi zamanın fövqündə

**Dünən Heydər Əliyev Mərkəzində III Nəsimi Şeir, Mənəviyyat və İncəsənət Festivalının açılış mərasimi keçirilib. Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı, ICESCO-nun tərəfdaşlığı ilə keçirilən festival "Əbədi həqiqət axtarışında" adlı beynəlxalq forumla start götürüb.**




***

**Nəsimi – şeir, mənəviyyat və incəsənət festivalının ilk günü Heydər Əliyev Mərkəzində Hüseyn Cavidin "İblis" əsərinin simfonik orkestr musiqiçilərinin və Azərbaycan Dövlət Pantomim Teatrının iştirakı ilə yeni təqdimatı olub.**

Əsərin yeni təqdimatının özəlliyi canlı orkestrin müşayiəti və orkestr musiqiçilərinin tamaşa müddətində həm də iştirakçıya çevrilməsidir.



Azərbaycan, Almaniya, İran, İraq, Kanada, Qazaxıstan, Oman, Özbəkistan, Pakistan, Şimali Kipr, Tacikistan və Türkiyənin elm adamlarının iştirak etdikləri məclisi açıq elan edən mədəniyyət naziri Adil Kərimli Azərbaycanın zəngin mədəni irsinin qorunmasının dövlət siyasətində prioritet olduğunu bildirib. Nazir festivalın ölkə daxilində və beynəlxalq səviyyədə Azərbaycan mədəniyyətini tanıtmaq və qlobal əməkdaşlığı inkişaf etdirmək baxımından böyük əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Həmçinin belə tədbirlərin Azərbaycanın ərazi bütövlüyü şəraitində həyata keçirildiyini və Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilən nailiyyətlərin mədəni inkişafı daha da gücləndirdiyini söyləyib.

ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Maliki forum iştirakçılarına videomüraciətində Nəsimi irsinin bəşəriyyətin mənəvi inkişafında misilsiz rol oynadığını bildirib.

Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli Nəsimi festivalının Azərbaycan incəsənətinin təbliği üçün mühüm beynəlxalq platforma olduğunu deyib. O qeyd edib ki, Nəsiminin əsərləri humanist prinsipləri və estetik dəyərləri özündə birləşdirərək dünya mədəni irsinin ayrılmaz hissəsinə çevrilib.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru Rafael Hüseynov isə orta əsr Şərqinin böyük şairi Nəsiminin zəngin fəlsəfi və ədəbi irsinə toxunub. O, Nəsiminin yaradıcılığının yalnız öz dövrünə deyil, gələcək nəsillərə də yol göstərdiyini bildirib. Direktorun sözlərinə görə, Nəsimi irsi ədəbiyyatın inkişafında və mədəniyyətlərarası dialoqun formalaşmasında böyük rol oynayıb, hələ də aktuallığını qoruyur və gənc nəsillərə ilham verir.

3 gün davam edəcək festival zəngin proqramı ilə də diqqət çəkir. Festival çərçivəsində Nəsimi yaradıcılığına həsr olunmuş müzakirələr, sərgilər, musiqi təqdimatları və tamaşalar keçiriləcək.

Festivalın ikinci günü isə şairin doğma diyarı Şamaxıda -- Nəsimi Bağları Kompleksində tanınmış xanəndələr, vokalçılar və qiraətçilərin iştirakı ilə bədii proqramlar, açıq səma altında "Multidissiplinar İncəsənət Festivalı" və konsertlər təqdim ediləcək.

Qeyd edək ki, 2018-ci ildən təşkil olunan Nəsimi festivalının tərəfdaşı İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO-dur.

Əsərdə həm bəşəri, həm də əbədi problem olan insanlıq və iblis arasında bitməyən mübarizə əks olunub.

Səhnə əsərinin baş rejissoru, Azərbaycan Dövlət Pantomim Teatrının yaradıcısı və bədii rəhbəri, Xalq artisti Bəxtiyar Xanızadə öz təəssüratlarını bölüşərək diqqətə çatdırıb ki, məşq prosesi 2 ay ərzində davam edib və sonuncu məşq zamanı kollektivdən gözlədiyi nəticəni alıb.

Tamaşada baş rolun ifaçısı və dirijor, Prezident mükafatçısı, bir sıra beynəlxalq müsabiqələrin laureatı Mustafa Mehmandarovun sözlərinə görə, ilk dəfə simfonik orkestrin musiqiçiləri tamaşada onun idarəçiliyi ilə Pantomim Teatrının aktyorlarının arasına qarışaraq plastik düşüncələrin iştirakçısına çevriliblər.






***

**Həmin gün Azərbaycan Milli Xalça Muzeyində Nəsimi festivalı çərçivəsində "Zamansız və məkansız" adlı sərgi açılıb.**

Ekspozisiya Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə düzənlənib.

Tədbiri açan Azərbaycan Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova Heydər Əliyev Fonduna və Mədəniyyət Nazirliyinə bu unikal sərginin təşkilinə görə minnətdarlığını bildirib. O qeyd edib ki, Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyalarında və Azərbaycan Milli Xalça Muzeyinin fondlarında saxlanılan unikal incəsənət nümunələri ilə yanaşı, ekspozisiyada Türkiyənin aparıcı mədəniyyət mərkəzlərindən olan Ankaradakı Etnoqrafiya Muzeyi, İstanbul Türbələr Muzeyi və Konyadakı Mövlanə Muzeyindən gətirilmiş 17 nadir eksponat nümayiş olunur.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov çıxış edərək dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin zəngin irsinin təkcə Azərbaycanda deyil, bütün Şərqdə, İslam aləminin geniş bir məkanında tanındığını bildirib.

Sərgidə Nəsiminin poeziyası, onun dini-fəlsəfi ideyaları, həmçinin sufilik ənənələri müxtəlif incəsənət növlərinin sintezi vasitəsilə təqdim olunur. Bunun üçün Azərbaycan və Türkiyənin aparıcı muzeylərindən nadir sənət əsərləri seçilib. Ziyarətçilər XVII–XX əsrlərə aid rəsm əsərləri, geyim nümunələri, xalçalar, musiqi alətləri, əlyazma kitablar və digər qiymətli eksponatlarla tanış ola bilərlər.

Ziyarətçilər ekspozisiyanı bir ay ərzində - oktyabrın 23-dək izləyə biləcəklər.

***Arzu ƏLİYEVA***
***XQ***



XQ Xalq qəzeti
xalqqazeti.az
№ 204 (30898) 24 sentyabr 2025-ci il, çərşənbə



## "Qızıl top"un sahibi kimdir?

**"France football" nəşrinin təsis etdiyi "Qızıl top" mükafatının qalibi bəlli olub. Mükafatı Fransa yığmasının və PSJ klubunun hücumçusu Usman Dembele əldə edib.**



Mərasimdə PSJ (Fransa) ilin ən yaxşı klubu, Luis Enrike (PSJ-nin baş məşqçisi) ən yaxşı məşqçisi, "Barselona" komandasının üzvü Lamin Yamal ilin ən yaxşı gənc futbolçusu adına, "Mançester Siti"nin italiyalı qapıçısı Canluici Donnarumma isə "Lev Yaşin" mükafatına layiq görülüb.

Qadınlarda isə "Qızıl top" ardıcıl üçüncü dəfə İspaniya yığmasının və "Barselona"nın üzvü Aitana Bonmatiyə təqdim olunub.

## 1 paralimpiyaçımız da medal qazanıb

**Milli Paralimpiya Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan paraüzgüçüsü Raman Salei (S12 kateqoriyası) Sinqapurda keçirilən Dünya çempionatının üçüncü günündə gümüş medal qazanıb. İdmançımız 50 metr məsafəyə sərbəst üsulla üzərək 24:27 nəticə ilə ikinci yeri tutub.**




Qeyd edək ki, R.Salei yarışın ilk günündə 100 metr məsafəyə arxası üstə üzməkdə qızıl, ikinci gündə isə 100 metr məsafəyə "butterfly" (kəpənək) üsulunda yarışda bürünc medal qazanıb.

## Bakıda Ağırlıqqaldırma Akademiyası açılıb

**Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının Avropa üzrə Mərkəzi statusunu daşıyan Bakı şəhərində beynəlxalq vebinar təşkil olunub.**



Azərbaycan Ağırlıqqaldırma Federasiyasından (AAF) verilən məlumata görə, Beynəlxalq Məşqçi Lisenziyası, Məşqçilərin Təhsili və İnkişafı Yolları mövzusunda keçirilən və 2025–2028-ci illəri əhatə edən vebinarda 20-dən artıq ölkədən 89 mütəxəssis iştirak edib.

AAF prezidenti Kamran Nəbizadə çıxışında Beynəlxalq və Avropa Ağırlıqqaldırma Federasiyaları prezidentlərinin Azərbaycana səfərlərini xatırladıb. Göstərilən etimada görə Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının prezidenti Məhəmməd Calud və Avropa Ağırlıqqaldırma Federasiyasının prezidenti Astrit Hasaniyə minnətdarlığını bildirən AAF rəhbəri vebinar iştirakçılarına uğurlar arzulayıb. M.Calud və A.Hasani də bu kimi tədbirlərin təşkilində ölkəmizin böyük təcrübəyə malik olduğunu diqqətə çatdırıblar.

Daha sonra qərargahı Bakıda yerləşən Avropa Ağırlıqqaldırma Olimpiya Akademiyasının təntənəli açılışı olub.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Futbol tariximizdən*

# Azərbaycan və Ukrayna futbolçularının "dinc oyun" ənənəsi

## *39 il əvvəl "Neftçi" Kiyev "Dinamo"su ilə necə oynayıb?*

**Gələn il iyunun 11-dən iyulun 19-dək ABŞ, Meksika və Kanada stadionlarında keçiriləcək futbol üzrə 23-cü Bünya çempionatının Avropa zonasında seçmə yarışlarının 4-cü turunda Azərbaycan millisinin Ukrayna komandası ilə görüşünə 3 həftə qalır. Oktyabrın 13-də Polşanın Vrotslav şəhərindəki "Tarçinski Arena"da təşkil olunacaq oyun Bakı vaxtı ilə saat 22:45-ə təyin edilib.**



Rəqiblər, şahidi olduğumuz kimi, sentyabrın 5-də paytaxtımızda bir-birindən "dinc" nəticə ilə ayrılıb (1:1), mundial–2026-nın seçmə sınaqlarında ilk xallarını qazandılar. Bəs oktyabrda Vrotslavda necə olacaq? Bu suala cavab gözləyərkən keçmişi xatırlamaq imkanımız var. Yazımızın səbəbkarı olan foto 1986-cı il noyabrın 9-da 49-cu SSRİ çempionatının "Neftçi"–"Dinamo" Kiyev görüşündə lentə alınıb. Hər ikisi o illərdə öz respublikalarının ən yaxşı klubları idi. Azərbaycan və Ukrayna milli komandalarının indiki nəsli o dövrdə bu iki paytaxt klubunun şərəfini qorumuş futbolçuların davamçılarıdır.

Fotoda bakılıların kapitanı İsgəndər Cavadovla (sağda) onun kiyevli həmkarı Anatoli Demyanenkonu görürük. Kapitanlar salamlaşdıqdan, vilnüslü hakim Romualdas Yuşkanın xeyir-duası və püşkün köməyi ilə meydanda yerlərini tutduqdan sonra görüş başlanıb.

Hakim protokolundan məlum olur ki, həmin axşam "Neftçi" Aleksandr Jidkov, Əsgər Abdullayev, Mustafa Bilalov, Mehman Allahverdiyev (Nazim Süleymanov, 78), Valeri Pançik, Yunis Hüseynov, Vaqif Sadıqov, Yaşar Vahabzadə, İqor Ponomaryov, Maşallah Əhmədov və İsgəndər Cavadovdan ibarət heyətlə mübarizə aparıb.

Oyunda tamaşaçılar tribunaları qol görmədən tərk ediblər. Hər iki komanda müdafiədə daha inamlı təsir bağışlayıb, hərəyə 1 xal qazanıb. Bu, şəhərimizdə həmin çempionatın payıza təsadüf edən son görüşlərindən biri idi.

Bakıdakı heç-heçədən 6 ay əvvəl isə birinci dövrədə "Neftçi" Ukrayna paytaxtında qonaq olub. Bu dəfə də tərəflər bir-birinin " xətrinə dəyməyib"–1:1. Moskvalı hakim Sergey Xusainovun idarə etdiyi oyunda Kiyevin Respublika stadionunda 22 min 500 azarkeş 2 qola şahidlik edib.

Azərbaycanda Novruz bayramının qeyd olunduğu günlərdə, martın 23-də keçirilmiş görüşdə hesabı 70-ci dəqiqədə Maşallah Əhmədov açıb. "Dinamo" da öz növbəsində borclu qalmayıb, "Neftçi"nin uğurundan 7 dəqiqə sonra Aleksey Mixayliçenko cavab topu vurub. Bununla belə, oyunun nəticəsi bizi qane etməyə bilməzdi. Həmin illərdə SSRİ yığma komandasına neçə-neçə məşhur futbolçu vermiş "Dinamo" ilə Kiyevdə heç-heçə oynamaq hər komandanın işi deyildi.

Onu da xatırladaq ki, 1986-cı ildə keçirilən çempionatda M.Əhmədov 13 qolla "Neftçi"nin ən məhsuldar oyunçusu olub, mövsümün yekunlarına görə SSRİ-nin ən yaxşı 33 futbolçusunun siyahısına da daxil edilib.

Beləliklə, bir az yaddaşımızın, bir qədər də fotonun və statistikanın köməyi ilə yada saldığımız 49-cu Sovet İttifaqı çempionatının 39 il əvvəl oynanılmış hər iki görüşündə nə "Neftçi", nə də "Dinamo" öz üstünlüyünü sübuta yetirə bilib.

Elə yazının əvvəlində xatırladığımız kimi, dünya çempionatının bu yaxınlarda Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilmiş Azərbaycan–Ukrayna seçmə görüşündə də qüvvələr bərabər oldu. Görək Vrotslavda oyun necə nəticələnəcək...

Sonda qeyd edək ki, Ukrayna–Azərbaycan matçından 3 gün əvvəl, oktyabrın 10-da üçüncü turda millimiz səfərdə Fransa komandasına qarşı oynayacaq.

**Bu arada 16 sentyabr zəfər gecəsindən bəri 1 oktyabr axşamına daha da yaxınlaşmışıq. İndi "Qarabağ"–"Kopenhagen" görüşünə cəmi 7 gün qalır.**

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# Güləşçilərimiz Dünya 2-cisi oldular




**Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən Dünya çempionatında 4 medalla komanda hesabında 2-ci yeri tutan yunan-Roma güləşçilərimiz vətənə qayıdıblar.**

Heydər Əliyev Beynəlxalq Aeroportunda idmançılarımızı qarşılama mərasimi keçirilib. Komandanın üzvləri hava limanında mətbuata qısa açıqlama veriblər.

**Aleksandr Tarakanov, baş məşqçi:**

– İlk növbədə, bizə yaradılan şəraitə görə AGF rəhbərliyinə, GİN və MOK-a təşəkkür edirik. Bir qızıl, bir gümüş və iki bürünc medalla komanda hesabında dünya ikincisi olduq. Qarşıda bizi növbəti yarışlar gözləyir. Səhvlərimizin üzərində işləməliyik. İki zədəli güləşçimiz bərpa prosesi keçdikdən sonra sıralarımıza qoşulacaq. Bizə dəstək olan və bizim üçün dua edən bütün güləşsevərlərə minnətdarıq.

**Ülvü Qənizadə, dünya çempionu:**

– Yarış həmişəki kimi çox çətin keçdi. Ən çətin görüşüm final qarşılaşması oldu. Fransa güləşçisiylə 3-cü dəfə qarşılaşırdım. Çox şükür, bu dəfə də qalib gəldim. Çətin, amma sonu gözəl oldu. Ümid edirəm ki, bundan sonra da belə nəticələrlə xalqımızı sevindirəcəyəm. Bu, məni arxayınlaşdırmamalıdır. Titulu qorumaq və artırmaq lazımdır. Üzərimdə əziyyəti olan hər kəsə – federasiya rəhbərliyinə, məşqçilər heyətinə, həkim və masajçımıza, şəxsi məşqçimə təşəkkür edirəm. Bu çempionluqda onların rolu böyükdür. Ümid edirəm ki, gələcək yarışlarda da onların inamını doğruldacağam.

**Həsrət Cəfərov, dünya ikincisi:**

– Təəssüratlarım qarışıqdır. Sevinc də var, kədər də. İkinci dünya çempionatıdır ki, finalda məğlub oluram. Nüfuzlu yarışlarda gərək heç bir səhvə yol verməyəsən. Bütün incə məqamlara diqqət yetirməlisən. Dünya çempionatı 1 səhvi belə bağışlamır.

**Eldəniz Əzizli, Dünya üçüncüsü:**

– Hədəfim 5-ci dəfə dünya çempionu olmaq idi. İstəyimə tam nail olmasam da, medalsız qalmadım. Dünya çempionatlarında qazanılan medalların əyarına görə, güləşdə ölkə rekordçusu idim. Bu yarışda 7-ci medalımı qazanmaqla artıq medal sayına görə də rekorda imza atdım. Buna görə sevinirəm. İldən-ilə gənclərlə rəqabət aparmaq çətinləşir. Ümid edirəm ki, bundan sonra mənim və komandam üçün daha yaxşısı olar.

**Murad Əhmədiyev, Dünya üçüncüsü:**

– Debütdə İtaliya güləşçisinə, daha sonra olimpiya mükafatçısı olmuş Qırğızıstan idmançısına qalib gəldim. 1/4 finalda olimpiya, 4 qat dünya və 7 qat Avropa çempionunu "tuş"la məğlub etdim. Yarımfinalda Rusiya güləşçisinə ilk xal prinsipinə əsasən uduzdum. Macarıstan idmançısına qalib gələrək bürünc medal qazandım. Qarşıda bizi İslam Həmrəyliyi Oyunları gözləyir. Həmin yarışa yaxşı hazırlaşıb çempion olmağa çalışacağam.

*Ə.QABİL*
*XQ*

# Şair cüdoçunun uğuru

**Bugünlərdə Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində veteran idmançılar arasında keçirilən cüdo yarışında 150-yə yaxın veteran idmançı iştirak edib. Yarışın sonunda Azərbaycan idmanının inkişafında mühüm xidmətləri olan bir qrup veteran idmançı təltif olunub.**



Qeyd edək ki, "Azərbaycan Neft təsərrüfatı" jurnalının əməkdaşı, tanınmış şair-publisist Akif Əhmədgil 73 kiloqram çəki dərəcəsində 1-ci yerə layiq görülüb. Qalib qələbə əldə etmək üçün yarışa hazırlıq prosesində ciddi, gərgin səylərlə çalışdığını bildirib.

Həmkarımız redaksiyamızda olarkən bu uğura görə baş məşqçi, 12 qat Dünya çempionu Fərhad Rəcəbliyə və yarışının təşkilatçısı "İdman Veteranları İctimai Birliyi"nin sədri, Olimpiya çempionu Zemfira Meftahətdinovaya minnətdar olduğunu bildirdi.

Veteran cüdoçu ustalardan ibarət cüdo idman növü üzrə Azərbaycan yığma komandasının bu ilin noyabrında Fransada keçiriləcək Dünya çempionatına hazırlaşdığını qeyd etdi. Akif Əhmədgil orada qaliblər arasında olacağına ümid bəslədiyini, bunun üçün əlindən gələcəyini söylədi.

*XQ*

# Payızın ilk addımları...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Gün ərzində bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 14-17, gündüz 20-24 dərəcə isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunundan 762 mm civə sütununa enəcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 11-16, gündüz 20-25, dağlarda gecə 1-6, gündüz 7-12 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Lənkərandan Taleh Qaraşov Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidova atası

**MİRHEYDƏR SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3544
SİFARİŞ 1940
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00